Günəş Şərqdən doğur!

№ 135 (5416), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 3 avqust 2021-ci il (çərşənbə axşamı)



## Kəlbəcərdə təxribatlara hazır olmalıyıq

İstehkam işləri tez yekunlaşmalı və sərhəd qışa qədər möhkəmlənməlidir

(səh.8)



## Kəlbəcərdə ordumuza məxsus Ural vurulmayıb

Azərbaycan Ordusunun bütün texnikası tam tərkibdə yerindədir

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 2-si saat 13:55-dən 17.00-dək Vedi rayonunun Arazdəyən və Basarkeçər rayonunun Zərkənd kəndləri ərazisində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi və Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndi istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

(səh.2)

## Bakının mövqeyləri güclənir




Minsk qrupu Qarabağdakı reallığı qəbul etməyə məcbur olub

(səh.6)

# Müharibə hələ bitməyib

## Türkiyəli jurnalist: “Ermənistan ABŞ, Fransa və İrandan dəstək alır”

**Qarabağ ətrafında baş verən proseslər hələ də dünya ictimaiyyətinin diqqətindədir. Çünki Ermənistan ”ən zəif bənd” olduğu halda, ”pas” demir.**

Kimə, nəyə ümid etdiyi məlum deyil. Sadəcə, ”suya düşən saman çöpündən yapışar” misalı elə hey vurnuxur.




(səh.6)



# Jirinovski sərsəmlədi

## Bakı Kremldən reaksiya gözləyir

(səh.2)

- **ABŞ 24 rusiyalı diplomata bir ay vaxt verdi** (səh.2)
- **Eldəniz Səlimov YAP-dan kənarlaşdırıldı** (səh.8)
- **431 yeni yoluxma faktı qeydə alınıb**
  139 nəfər müalicə olunaraq sağalıb, 3 nəfər vəfat edib (səh.9)
- **"Hər gün o ağrını duyuram"**
  Fəxrəddin Manafov: “Söz deməyə artıq kimsəm yoxdur” (səh.14)

# Baş nazir tapşırıq verdi



## İşğaldan azad edilmiş ərazilərdə məzar yerləri aşkarlanarsa, dövlət komissiyasına xəbər verilməlidir

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə işğalçı Ermənistan ordusu üzərində əldə edilmiş tarixi zəfər nəticəsində müqəddəs Vətən torpaqlarının azad edilməsi bütün sahələr üzrə yeni situasiya yaratmışdır.**

Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə hazırda işğaldan azad edilmiş ərazilərdə minalardan təmizləmə, infrastrukturun bərpası və tikinti-quruculuq işləri aparılır.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından verilən məlumata görə, komissiyada toplanmış məlumatlara, o cümlədən şahid ifadələrinə əsasən, birinci Qarabağ Müharibəsi zamanı yaşayış məntəqələri işğal edilərkən Ermənistan ordusu və terrorçu-quldur dəstələri tərəfindən qətlə yetirilmiş Azərbaycan vətəndaşları həmin ərazilərdə dəfn edilib.

İşğaldan azad olunmuş ərazilərdə görülən müvafiq işlər zamanı aşkar edilmiş naməlum məzar yerlərində ekshumasiyanın qeyri-peşəkar şəxslər tərəfindən aparılması və meyit qalıqları ilə ehtiyatsız davranış onların müxtəlif zədələr almasına, qarışmasına, məlumat və sübutların, həmçinin artefaktların itməsinə səbəb ola bilər. Bu cür hallara yol verilməsi isə sonradan meyit qalıqlarının eyniləşdirilməsində ciddi problemlər yarada bilər.

Göstərilənlər və birinci Qarabağ Müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyata alınmış 3890 vətəndaşımızın sonrakı taleyinə aydınlıq gətirilməsinin zəruriliyi nəzərə alınaraq, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının müraciəti əsasında işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-quruculuq işləri zamanı kütləvi və fərdi məzar yerləri aşkar ediləcəyi halda ekshumasiya işlərinin mütəxəssislər tərəfindən aparılması məqsədilə Dövlət Komissiyanın dərhal məlumatlandırılması barədə Azərbaycan Respublikasının Baş Naziri tərəfindən aidiyyəti dövlət qurumlarına müvafiq göstəriş verilib.



## Kəlbəcərdə ordumuza məxsus Ural vurulmayıb

### Azərbaycan Ordusunun bütün texnikası tam tərkibdə yerindədir

**Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 2-si saat 13:55-dən 17.00-dək Vedi rayonunun Arazdəyən və Basarkeçər rayonunun Zərkənd kəndləri ərazisində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi və Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndi istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur. Cavab atəşi ilə qarşı tərəf susdurulub.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Bəzi sosial şəbəkələrdə Azərbaycan Ordusuna məxsus Ural markalı avtomobilin guya Kəlbəcər istiqamətində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən minaatanlardan atəşə tutulması və itkilərin olması barədə yayılan məlumat həqiqətə uyğun deyil.

Bu barədə məlumatı Müdafiə Nazirliyi öz Facebook hesabında paylaşıb.

Məlumatda bildirilir ki, Azərbaycan Ordusunun bütün texnikası tam tərkibdə yerindədir.



## ABŞ 24 rusiyalı diplomata bir ay vaxt verdi

**"Amerika Birləşmiş Ştatları Rusiya tərəfinə vizalarının müddəti bitdiyinə görə ölkəni sentyabrın 3 -nə qədər tərk etməli olan 24 diplomatın siyahısını təqdim edib".**

"Report" xəbər verir ki, bunu Rusiyanın ABŞ-dakı səfiri Anatoliy Antonov "National Interest" jurnalına müsahibəsində deyib.

"Vaşinqton birdən -birə viza prosedurlarını sərtləşdirdiyi üçün demək olar ki, onların heç biri əvəz edilməyəcək. Təəssüf ki, vəziyyət yaxşılığa doğru dəyişmir. ABŞ-dakı Rusiya diplomatik nümayəndəlikləri görünməmiş məhdudiyyətlər altında fəaliyyət göstərir. Bayden administrasiyasının diplomatiyanın vacib rolu və Rusiya ilə sabit, proqnozlaşdırıla bilən əlaqələri inkişaf etdirmək istəyi ilə bağlı açıqlamalarına baxmayaraq, Rusiyanın diplomatik varlığı mütəmadi olaraq zərbə alır" -deyə, diplomat bildirib.

Səfir bildirib ki, rusiyalı diplomatların ölkədən çıxarılması düşünülmüş bəhanələrlə həyata keçirilir:

"Ötən ilin dekabrında Dövlət Departamenti, bildiyimiz qədər başqa heç bir ölkəyə şamil edilməyən rus personalına üç illik səyahət limiti tətbiq etdi".

# "Ona 1 milyon qaçqını olan Azərbaycan lazımdır"

### Səməd Seyidov: "Jirinovski kimiləri siyasi səhnədə olduqca şimal qonşumuzun problemləri artacaq"



Rusiyanın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə dəvət olunub. Görüş zamanı Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovskinin "Komsomolskaya Pravda" radiosunun "İtoqi s Jirinovskim" proqramının cari ilin 30 iyul tarixli buraxılışında Azərbaycanın dövlətçiliyi və rəhbərliyi ünvanına səsləndirdiyi qərəzli və təhqiramiz fikirləri ilə bağlı ciddi narahatlıq və etirazımız müvəqqəti işlər vəkilinin diqqətinə çatdırılıb.

Rusiya Dövlət Dumasında deputat mandatı ilə təmsil olunan bir şəxsin bu davranışının qeyri-etik olmaqla yanaşı, dövlətlərimiz arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun olmadığı, habelə bu münasibətlərə zərər gətirilməsinə hesablanmış məsuliyyətsiz və təxribat xarakterli ifadələrin səsləndirilməsinin qəbuledilməz olduğu vurğulanıb. Sözügedən xoşagəlməz hal ilə bağlı qarşı tərəfə Azərbaycan Xarici İşlər Nazirliyinin notası təqdim olunub.

**Millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin sədri Səməd Seyidov bu barədə "Şərq"ə münasibət bildirib:**

"Jirinovski sıravi şəxs olsaydı, bəlkə də, fikir verməmək olardı. Amma o, aparıcı partiya sədrlərindən, Dumada fraksiya sahiblərindən biridir. Bu açıqlaması isə Azərbaycan-Rusiya əlaqələrinə xələl gətirə bilər. Odur ki, XİN-in Rusiyaya nota verməsi məqsədəuyğun idi. Siyasətçi artıq üzr istəyib. Jirinovskinin vaxtı ilə Azərbaycana səfəri zamanı mən onu müşahidə etmişdim. Ölkəmizi necə təriflədiyinin şahidiyəm. İndi "barmaq silkələməsi" isə təsadüfi deyil".

**S.Seyidov, həmçinin bəyanatın mahiyyətini izah edib:**

"Belələrinə bugünkü Azərbaycan və Rusiya sərf etmir. Çünki məhz Jirinovski kimiləri Rusiyanı sanksiyalara məruz qoyub, dövlətin beynəlxalq imicini sıfıra endirib. O, tez-tez ölkədəki "V kolon"dan danışır. Halbuki ən böyük "V kolon" özüdür - ölkəsini məhv edir.

Jirinovski kimiləri siyasi səhnədə olduqca şimal qonşumuzun problemləri artacaq. Əlbəttə, belə siyasətçilər bizim yaratdığımız yeni reallığı da qəbul etmək istəmirlər. Onlara işğal altında qalan, bir milyon qaçqını olan Azərbaycan lazımdır.

Prezident İlham Əliyev dünya miqyaslı siyasətçiyə çevrilib. Bakı-Moskva münasibətləri iki bərabərhüquqlu dövlətin münasibətləridir. Və bu, Jirinovskilərin geosiyasi maraqlarına uyğun deyil".

**Kənan Novruzov**

# “Ərdoğanın xarici siyasətdəki dəyişikliyi Amerikada isti qarşılanmır"

"Hazırda iki NATO müttəfiqi arasında münasibətlər soyuqdur. Şübhəsiz ki, Türkiyənin hərbi sənayesinin inkişafı, xüsusilə PUA sistemlərinin istehsalı və onun regional konflikt ocaqlarında uğurlu istifadəsi hərbi mütəxəssislərin də diqqətini çəkir. Türk dronları hərbi sənayedə bir inqilabdır. Bu dronlar həm ucuz başa gəlir, həm də münaqişə regionlarında faydalı olur. Təxminən, keçən həftə Türkiyə Prezidenti Ərdoğan tərəfdarları qarşısında etdiyi çıxışda belə demişdi ki, türk dövləti ölkəyə yarana biləcək istənilən təhdidi yerindəcə yox etmək qabiliyyətinə malikdir. Ərdoğana görə, ölkəsinin təhlükəsizliyi öz sərhədləri daxilində deyil, təhdidlərin olduğu hər yerdə başlayır".



## “Türkiyənin hərbi qüdrətinin artması ABŞ-da da narahatlıqla izlənilir”

**Bu fikirləri “Şərq”ə açıqlamasında siyasi ekspert, beynəlxalq münasibətlər üzrə araşdırmaçı Kamal Əliyev deyib.** O qeyd edib ki, böyük və güclü dövlətlər özlərinə qarşı yaranan istənilən təhdidi dünyanın istənilən nöqtəsində aradan qaldırır: ”Digər tərəfdən, Türkiyənin hərbi qüdrətinin artması ABŞ-da da narahatlıqla izlənilir. Hətta son vaxtlar bəzi senatorlar Baydendən xahiş edirlər ki, Türkiyənin regional aktivliyinin qarşısını alsın. Türkiyənin Suriyadakı diktator Əsəd rejiminə qarşı son hərbi əməliyyatlarında 135 tank, 10 hava hücumundan müdafiə sistemi, 8 helikopter və 2557 rejim əsgəri məhv edilmişdi. Fərz edirəm ki, 2020-ci il türk gücünün proyeksiyası üçün vacib il idi. 44 günlük İkinci Qarabağ müharibəsində Türkiyənin dəstək verdiyi Azərbaycan böyük qələbə əldə etdi. Azərbaycan bu müharibədə Ermənistanın sahib olduğu xeyli Rusiya istehsalı silahı sıradan çıxardı və 5 minə yaxın erməni əsgərini məhv edə bildi. Biz eyni nəticəni Liviya və İraqın şimalında da müşahidə etdik. 2000-ci illərdə Türkiyə ətrafında baş verən problemləri dialoq yoluyla həll etmək istəyirdi. Lakin bu problemlər həll olunmadı və rəsmi Ankara öz xarici siyasət doktrinasında dəyişikliklərə getdi”.

**Siyasi ekspert əlavə edib ki, Ərdoğanın xarici siyasətindəki dəyişikliklər ABŞ tərəfindən isti qarşılanmadı:** ”ABŞ Türkiyənin sərhədlərinə yaxın coğrafiyada ayrı-ayrı terror təşkilatlarını dəstəkləməyə başladı. Əlbəttə, bu, Ankara tərəfindən müsbət qarşılana bilməzdi. ABŞ konqresində Robert Menendez adlı ermənipərəst senator açıqaydın Dağlıq Qarabağda Azərbaycan tərəfindən cihadçı qrupların döyüşdüyü yalanını təkrarlayırdı. Konqresdə Respublikaçılar Partiyasının başqa təmsilçisi Ceyms Riş Türkiyənin NATO müttəfiqi kimi hərəkət etmədiyini və Rusiyadan S400 raket sistemini aldığını deyirdi. Düzdür, rəsmi Vaşinqton Türkiyəni F-35 sistemindən kənarlaşdırsa da, türklər ən müasir dronları istehsal etməyə nail oldu. Bildiyiniz kimi, ABŞ 2001-ci ildən işğal etdiyi Əfqanıstandan çəkilir. Türkiyə isə Kabil aeroportuna nəzarət etmək niyyətindədir. Ankaranın bu niyyəti ABŞ tərəfindən məmnuniyyətlə qarşılandı. Türkiyə hazırda ətrafındakı regionlarda Cənubi Avropada, Mərkəzi Asiyada, Şimali Avropada, Qafqazda, Şərqi Avropada böyük güc olaraq qəbul olunur. Çünki Türkiyənin lazım gəldikdə sərt gücdən istifadə etmə təcrübəsi var. Məncə, ABŞ üçün hazırda Türkiyənin empirik gücünün bir təhdid ünsürü, ya da fürsət olması reallığıdır”.

**Aynurə Pənahqızı**

# Jirinovski sərsəmlədi

## Bakı Kremldən reaksiya gözləyir

Hər zaman sərsəm bəyanatları ilə gündəmə Rusiya Dövlət Dumasının deputatı, Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski Azərbaycanı və Türkiyəni təhdid edən bəyanatlar səsləndirib. "Komsomolskaya pravda" radiosunun "İtoqi s Jirinovskim" proqramının 30 iyul tarixli buraxılışında növbəti dəfə Azərbaycan dövlətçiliyi və rəhbərliyin ünvanına hədyanlar söyləyib. Jirinovski bildirib ki, Cənubi Qafqaz Rusiyanın 200 illik müstəmləkəsi olub və ona görə də bölgədə hamı Rusiyanın iradəsi ilə hesablaşmalıdır.

Bundan başqa o, Rusiya sülhməramlılarına qarşı ”xüsusi münasibət” də tələb edib. Həmçinin, Azərbaycan hakimiyyətini rus əsgərləri ilə təhdid edib. Məlum açıqlamalardan sonra Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə dəvət olunaraq ona etiraz notası verilib. Qərəzli və təhqiramiz fikirlərlə bağlı rəsmi Bakının ciddi narahatlıq və etirazı müvəqqəti işlər vəkilinin diqqətinə çatdırılıb. Rusiya Dövlət Dumasında deputat mandatı ilə təmsil olunan bir şəxsin bu davranışının qeyri-etik olmaqla yanaşı, dövlətlərimiz arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun olmadığı vurğulanıb. Habelə ikili münasibətlərə zərər gətirilməsinə hesablanmış məsuliyyətsiz və təxribat xarakterli ifadələrin səsləndirilməsinin qəbuledilməz olduğu qeyd olunub. Etiraz notasından sonra Jirinovski yenidən açıqlama verib. O, absurd ifadələrini ”söz azadlığı” ilə əlaqələndirməyə çalışıb: ”Bakıya toxunmayacam - yoxsa etiraz notası olar. Ermənistana da toxunmayacam. Ümumiyyətlə, biz susmalı, onların rus xalqının hesabına yaşadıqlarını deməməliyik? Hansısa məmur doğru düşünmür və müvəqqəti işlər vəkilinə nota təqdim edir, yəni onlar söz azadlığını bilmirlər?”.

Artıq neçənci dəfədir ki, sərsəm-faşist ritorikasına üstünlük verən Jirinovski ölkəmizə qarşı bu şəkildə hədyan dolu çıxışlarlar səsləndirir. Görünən odur ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsi ermənilərin dostu olan Jirinovskiyə ciddi təsir edib. Azərbaycanın qələbəsinin Rusiyada şovinist qüvvələrin kefinə soğan doğradığı açıq-aydın sezilməkdədir. Amma bu cür siyasi klounlar həm Azərbaycan XİN-in, həm də cəmiyyətimizin sərt reaksiyasını hiss etməlidir ki, özlərini yığışdırsınlar və məsuliyyətlərini dərk etsinlər. Əslində Rusiya cəmiyyətinin özü də bu siyasi təlxəyə ciddi reaksiya göstərməlidir. Çünki onun imperiya çağırışları və ritorikası ilk növbədə Rusiyanın özünü dünya birliyinin hədəfinə gətirir və nüfuzuna ağır zərbə vurur. İndi heç bir ölkə öz işğalçı keçmişi ilə, müstəmləkə siyasəti ilə öyünmür. Bu cür hədyanla ilk növbədə Kremlin özünə zərbədir və Moskvanın bölgədəki siyasətinə xələl gətirir. Jirinovski bu çıxışı ilə əslində dolayısı yolla Rusiyanı işğalçı kimi təqdim edir. Ekspertlərin fikrincə, Jirinovskinin sayıqlamaları



## Siyasi təlxəyin cavabı vaxtında verilməlidir

Rusiyanın rəsmi mövqeyi kimi qəbul edilə bilməz. Son illər iki dövlət arasında münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin genişlənməsi müşahidə olunur.

**Millət vəkili Ceyhun Məmmədov ”Şərq”ə bildirib ki, bu adamın əsas işi digər ölkələrin daxili işinə qarışmaq, onları təhqir etmək və aşağılamaqdır.** Deputatın sözlərinə görə, söyüşkən, jarqon ifadələrdən öz çıxışlarında davamlı istifadə edən Jirinovski normal polemika aparmaq qabiliyyətinə malik deyil: ”Dəvət edildiyi bütün verilişlərdə aparıcıları aşağılayır. Onun təhqir etmədiyi, söymədiyi siyasətçi, ictimai xadim və veriliş aparıcısı qalmayıb. Əsas ritorikası söyüş və təhqir olan bu şəxs hələ də anlamır ki, bu sərsəm bəyanatları ilə Rusiya ilə keçmiş sovet respublikaları arasında münasibətləri korlayır. Yaxşı olar ki, öz enerjisini xalqlar arasına nifaq və düşmənçilik salmağa, onları aşağılamağa və təhqirə deyil, dostluq və əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə sərf edəydi. Jirinovski anlamaladır ki, artıq sovet ittifaqı yoxdur. Azərbaycan suveren, müstəqil respublikadır və onun daxili işlərinə heç kim qarışa bilməz. Ona xatırlatmaq lazımdır ki, Azərbaycan ”banan respublikası” deyil və Azərbaycan xalqı ona uzanan dili və əli kəsməyə qadirdir. Azərbaycan Ermənistandan fərqli olaraq hər zaman Rusiya ilə dostluğun və əməkdaşlığın gücləndirilməsinə xüsusi önəm verib. Rusiya ilə münasibətlərdə səmimi və açıq olub. Ermənistan isə hər zaman ikili oyun oynayıb, xəyanət edib. Necə ki bu gün bunu yenə edir. Prezident İlham Əliyev dəfələrlə Rusiya rəhbəri ilə dostluq əlaqələrinə malik olduğunu vurğulayıb. Azərbaycan-Rusiya münasibətləri davamlı inkişaf edir və bu əlaqələrin inkişafına heç kim xələl gətirə bilməz”.

**Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər namizədi Zaur Məmmədov ”Şərq”ə bildirib ki, Jirinovski ilk dəfə azərbaycanlıları 1990-cı illərdə təhqir etmişdi, sonra müəyyən vaxtlarda öz təlxəkliyini sürdürdü.** Analitikə görə, onun son bəyanatı Kreml klounun növbəti sərsəmləməsidir: ”Bizi rus əsgərləri ilə təhdid etmək lazım deyil. Bu təhdidlər 44 günlük müharibədə sənin müdafiə etdiyin Ermənistanın deyil, hədə-qorxu gəldiyin Azərbaycanın qələbəsi ilə yekunlaşdı. Hazırda Rusiyanın vasitəçiliyi ilə Cənubi Qafqazda Bakı və İrəvan arasında müzakirələr gedir. Rusiyanın özü üçün də vacib olan cənub hüdudlarındakı sabitlik ədalətli yanaşmadan asılıdır. Əgər kimlərsə Qarabağın dağlıq hissəsi ilə bağlı cığallıq edəcəksə, itirən tərəf olacaqlar. Sülhməramlılar isə müvəqqətidir. Torpaqlarımızda həmişəlik yuva salmaq istəyənlər əmin olsunlar ki, bu, mümkün olmayacaq. Azərbaycana qarşı çirkin planlarını işə salsalar, onları da erməniləri qovduğumuz kimi qovarıq. Xalqımız Prezidentimizin apardığı daxili və xarici siyasəti dəstəkləyir və hər an ölkə başçısının yanındadır”.

**İsmayıl Qocayev**

# Şərait diktə edir

## Gürcüstan regional əməkdaşlığa cəlb olunacaq



## Yaxın zamanlarda dövlət başçılarının üçtərəfli görüşü gözlənilir

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında telefon danışığı olub. Telefon danışığı zamanı tərəflər ikitərəfli əlaqələri və regional məsələləri müzakirə ediblər.

Qaribaşvili Ərdoğana Türkiyədəki meşə yanğınlarına görə məyus olduqlarını bildirib və yanğınla mübarizədə hər zaman dəstəyə hazır olduqlarını qeyd edib. Ərdoğan öz növbəsində təşəkkürünü bildirərək, Gürcüstanı regional iş birliyinin açarı olaraq gördüklərini deyib. Xüsusilə, regional nəqliyyat və enerji ötürmə xətlərinin səmərəliliyi və təhlükəsizliyi baxımından birlikdə hərəkət etmənin vacib olduğunu vurğulayıb. Ərdoğan nazirlərin, parlament üzvlərinin uğurla davam etdirdikləri Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatını liderlər səviyyəsində də canlandırmaq istədiklərini qeyd edib.



**Türkiyə liderinin Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatına növbəti dəfə diqqət çəkməsini “Şərq”ə dəyərləndirən politoloq Azər Qasımov bildirib ki, Gürcüstan Cənubi Qafqaz regionunda, xüsusən Türkiyə ilə əlaqə baxımından qapı rolu oynayır.** Siyasi şərhçinin sözlərinə görə, Gürcüstan Türkiyə və Azərbaycanın çoxsaylı meqalayihələrinin keçdiyi tranzit ölkədir: ”Gürcüstan hər zaman Türkiyənin maraq dairəsindədir. Mövcud vəziyyətdən və siyasi durumdan asılı olmayaraq, həm Azərbaycan, həm də Türkiyə daim qonşu Gürcüstanın regional əməkdaşlığa cəlb olunmasına böyük önəm veriblər. Qardaş Türkiyə beynəlxalq arenada artan rolunu nəzərə alaraq, özünə strateji tərəfdaşlar tapmağa, onların dəstəyindən istifadə etməyə çalışır. Bu baxımdan son günlər Gürcüstan rəhbəri ilə əməkdaşlıq məsələləri ciddi müzakirə olunur. Fikrimcə, Gürcüstan Türkiyə və Azərbaycan dövlət başçılarının yüksək səviyyəli görüşü yaxın zamanlarda baş tuta bilər”.

**A.Qasımova görə, regionda yeni geosiyasi şərait formalaşıb:** ”Bu şərait yeni əlaqələrin, tərəfdaşlıqların formalaşmasını və qonşu ölkələrin öz prioritetlərini müəyyən etməsini tələb edir. Əgər tərəflər regionun stabilləşməsində maraqlıdırsa, qonşu ölkələrin eyni fəaliyyət planı üzrə ortaq hərəkət etməsi mütləqdir. Əks təqdirdə fikir müxtəlifliyi regiona sabitlikdə maraqlı olmayan qüvvələrin ayaq açmasına gətirib çıxaracaq. Gürcüstan rəhbərliyinin fikirlərinin dəqiqləşdirilməsi üçün yüksək səviyyəli görüşün mümkünlüyü gündəmdədir”.

**İsmayıl Qocayev**




## Azərbaycan Türkiyə əlaqələrindən Türk Birliyinə doğru...

### “Bir-birimizin çatışmayan cəhətini tamamlamalıyıq”

**Dünən Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Cümhuriyyətinin Xarici işlər naziri Mövlut Çavuşoğlu arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nazirlər Türkiyədə baş verən meşə yanğınları, yanğınların söndürülməsi əməliyyatları, habelə həyata keçirilən xilasetmə işləri ilə bağlı fikir mübadiləsi aparıblar. Azərbaycan dövlət başçısının tapşırığı ilə Türkiyəyə göndərilən yardımla bağlı, hər zamankı kimi, qardaş Türkiyənin yanında olduğumuzu qeyd edən nazir Ceyhun Bayramov, bundan sonra da hər cür yardımı göstərməyə hazır olduğumuzu vurğulayıb. Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

**Siyasi analitik Turab Rzayev Bakı ilə Ankara arasındakı müntəzəm təmasları ”Şərq”ə dəyərləndirib:** ”İndiki əlaqələr çoxdan olmalı idi. Hər iki cəmiyyətdə bir-birinə qarşı rəğbət var. Bu isə dövlət rəhbərlərinin qarşılıqlı qardaşlıq münasibətləri ilə nəticələnir. Biz fərqli sahələrdə bir-birimizə dəstək oluruq. Yadınızdadırsa, Vanda zəlzələ baş verəndə Azərbaycan müraciət gözləmədən qardaş ölkəyə yardım göndərmişdi. Eləcə də Türkiyə lazımi məqamlarda bizim güman yerimiz olur”.

**T.Rzayev, həmçinin dedi ki, bu praktika daha da genişlənməlidir:** ”Digər ölkələr, o cümlədən Türkmənistanla, Özbəkistanla da oxşar əlaqələr yaradılmalıdır. Sovet dövründə münasibətlərimiz başqa cür idi. Yenə elə olmalıdır. Bir-birimizin çatışmayan cəhətini tamamlamalıyıq”.

**Kənan**

# “Üçlər”in birlik örnəyi...

## Ceyhun Məmmədov: “Azərbaycan, Türkiyə və Pakistan nümunəvi əməkdaşlıq modelini uğurla inkişaf etdirirlər”



"Müasir dövrdə Azərbaycan, Türkiyə və Pakistan nümunəvi əməkdaşlıq modelini uğurla inkişaf etdirirlər". Bu barədə millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, müsəlman ölkələri arasında birlik və həmrəyliyin gücləndirilməsi xüsusi önəm daşıyır:



”Azərbaycanla Türkiyə arasında əlaqələr uzun illərdir sürətlə inkişaf edir. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ikinci dövlət yoxdur. Hazırda beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər üzrə Azərbaycanla Turkiyənin mövqeləri çox yaxındır və ya üst-üstə düşür. Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlib. Vətən müharibəsi dövründə, eləcə də ondan əvvəlki dövrdə Türkiyə daim Azərbaycanın yanında oldu. Ölkəmizə həm siyasi, həm də mənəvi dəstək göstərdi. Türkiyə rəsmiləri dəfələrlə Azərbaycana səfər edərək ciddi dəstəklərini ifadə etdilər. Azərbaycan bu dəstəyi yüksək qiymətləndirir və heç zaman unutmayacaq. Həm Azərbaycan, həm də Türkiyə Zəngəzur dəhlizinə xüsusi önəm verir. Bu lahiyənin həyata keçirilməsi bütövlükdə regionda təhlükəsizliyin təmin olunmasına, sülh və əmin-amanlığın bərqərar olmasına ciddi töhfələr verəcək. Həmçinin Azərbaycanı loqistika mərkəzinə çevirmək üçün yeni imkanlar yaradacaq. Artıq proses sürətlə gedir və bu layihələrin qarşısını heç kim ala bilməz. Bunu Ermənistan tərəfi də ciddi nəzərə almalıdır. Populist və revanşist bəyanatlar Ermənistanı daha da uçuruma aparacaq. İqtisadiyyatının çöküşünə, siyasi böhranın daha da dərinləşməsinə səbəb olacaq. Bunu gec olmadan ermənilər anlamalıdırlar. Əks halda region dövlətlərinin hər birini yüksəlişə aparacaq bu proseslərin kənarında qalaraq məhv olacaqlar”.

**Parlament üzvü vurğulayıb ki, Azərbaycanla Pakistan əlaqələrinin də dərin tarixi kökləri var:** ”Hər iki ölkənin xalqları birbirinə qarşılıqlı hörmət bəsləyir. Hər iki xalqın eyni dəyərlərə malik olması onlar arasında birlik və həmrəyliyi daha da möhkəmləndirir. Bu əlaqələrin tarixi azərbaycanlı xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin adı ilə birbaşa bağlıdır. 2005-ci ildə isə Azərbaycan Prezidenti İlham Əliyev Pakistana rəsmi səfər edib. Azərbaycan və Pakistan prezidentlərinin görüşündə ölkələrarası münasibətlər müzakirə olunub, nəqliyyat, informasiya və kommunikasiya, aviasiya, mədəniyyət, maliyyə və təhsil sahəsində 6 əməkdaşlıq sazişi imzalanıb. 2016-cı il 1 yanvar tarixində Davosda Prezident İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Navaz Şərif ilə görüşü olub. 2016-cı ildə Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Müdafiə Sənayesi nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Qarşılıqlı əlaqələrin inkişafında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də ciddi rol oynayır. Mehriban xanım Əliyevanın rəhbərliyi, Heydər Əliyev Fondunun xətti ilə Pakistanda bir sıra mühüm layihələr həyata keçirilib, zəlzələdən zərərçəkmiş məktəblər təmir edilib, tibb müəssisələri müvafiq avadanlıqlarla təchiz edilib. Sadalanan faktlardan da göründüyü kimi, Azərbaycanla Pakistan hər zaman çətin günlərdə bir-birilərinin yanında olublar. Bu ənənə bu gün də uğurla davam etdirilir. Hər iki ölkə tərəfindən tez-tez qarşılıqlı səfərlər həyata keçirilir. Hər iki dövlət bir-birinə qarşı dəstəyini davamlı ifadə edir”.

**İsmayıl Qocayev**



E.Şahinoğlunun sözlərinə görə, Rusiya hərbçiləri Qarabağda Azərbaycan qanunlarına tabe olmayan ermənilərin sayını artırmağa çalışırlar: ”Əlbəttə, rəsmi Bakı Qarabağda erməni əhalisinin yaşamasının əleyhinə deyil. Ancaq Qarabağda yaşayan ermənilər separatçılara tabe olub Azərbaycan qanunları ilə yaşamaq istəməyəcəklərsə, onların Azərbaycan torpaqlarını tərk etməsi aktuallaşacaq. Rusiya hərbçiləri isə bunun əksinə olaraq Qarabağda Azərbaycan qanunlarına tabe olmayan ermənilərin sayını artırmağa çalışırlar. Ona görə də bu məsələdə Bakı ilə Moskva arasında fikir ixtilafı getdikcə gərginləşəcək. Bundan başqa rəsmi Bakı hələ işğal altında olan məntəqələrin geri qaytarılmasını və həmin məntəqələrə azərbaycanlıların geri qayıdışını təmin etməlidir. Misal üçün, azərbaycanlıların yaşadığı Şuşanın əksər kəndi və Xocalı rayonunun bir hissəsi işğal altındadır. Bu işğala da son qoyulmalıdır. 10 noyabr bəyanatına görə, Rusiya hərbçiləri həmin kəndlərin, o cümlədən Xocalı rayonunun tamamının Azərbaycanın müvafiq strukturlarının nəzarətinə qayıdışını təmin etməlidir. Rusiya hərbçiləri bunu təmin etməsələr, Azərbaycan ordusu müvafiq addımlar atmaq məcburiyyətində qalacaq. Aydındır ki, Bakının bu planları Moskvanın xoşuna gəlmir. Ona görə də yenə Vladimir Jirinovskini irəli sürüb, onun təxribatçı diliylə Azərbaycanı hədələyirlər. Jirinovskinin Azərbaycan əleyhinə keçmiş təxribatçı açıqlamaları cavabsız qalıb. Bu dəfə mütləq cavab verilməliydi və bununla Jirinovskinin sahiblərinə mesaj göndərilməliydi ki, Qarabağda bizi təhdid edə bilməzsiniz və Qarabağda planlaşdırdığımız çalışmaları davam edəcəyik”.

# Bakı Moskva münasibətləri kəskinləşəcək

## Jirinovskinin dili ilə Azərbaycanın hədələnməsi cavabsız qalmamalıdır

“Rusiya Liberal Demokrat Partiyasının lideri, şovinist deputat Vladimir Jirinovski Rusiya radiosuna verdiyi müsahibədə Azərbaycanı və Prezident İlham Əliyevi hədələyib. Jirinovski Qarabağda yerləşdirilən rus hərbçilərinin həyatına təhlükə yaranacağı halda bunun Azərbaycan və Prezident İlham Əliyev üçün baha başa gələcəyini iddia edib".

**Bu sözləri politoloq Elxan Şahinoğlu ”Şərq”ə açıqlamasında deyib.** Politoloq qeyd edib ki, rəsmi Bakı Vladimir Jirinovskinin bu açıqlamasına dərhal reaksiya verdi: ”Azərbaycan parlamentinin bir çox deputatı Jirinovskini sərt tənqid etdi. Bundan başqa Azərbaycan Xarici İşlər Nazirliyi Rusiyaya nota verdi. Rəsmi Bakı Moskvanı strareji tərəfdaş adlandırsa da, Azərbaycan Xarici İşlər Nazirliyinin say etibarilə ən çox nota verdiyi ölkə Rusiyadır. Bu, günümüzün reallığıdır və Azərbaycana ünvanlanmış təxribatların əsas istiqamətini göstərir. Vladimir Jirinovski ilk dəfə deyil ki, Azərbaycana qarşı təxribatçı açıqlama verir. Jirinovski Türkiyəyə qarşı da təxribatçı açıqlamalar səsləndirir. Halbuki, Vladimir Jirinovski bir neçə dəfə Türkiyədə və Azərbaycanda olub. Jirinovski bir neçə il əvvəl Bakıda Prezident İlham Əliyevlə görüşmüşdü. Görünür, bu görüşü təşkil edənlər Vladimir Jirinovskinin Azərbaycana münasibətinin müsbətə doğru dəyişəcəyini gözləyirdilər. Anti-türk münasibəti dəyişmədi, qozbeli qəbir düzəldər. Kreml rəsmi Bakının siyasətindən narazıdır və Jirinovski növbəti təxribatçı açıqlamasıyla Rusiya hakimiyyətinin sifarişini yerinə yetirib. Rəsmi Bakı Qarabağdakı rusiyalı hərbçilərin 5 illik varlığını ”müvəqqəti” sözüylə ifadə edir. Bu o deməkdir, 4 ildən sonra (5 illik müddətin 1 ili artıq arxada qalmaq üzrədir) rusiyalı hərbçilərin Qarabağı tərk etməsi aktuallaşacaq. İndinin özündə bu fəaliyyət Azərbaycanda ciddi narahatlıq yaradır. Birincisi, rusiyalı hərbçilər Qarabağdakı erməni separatçılarını tərksilah etmir və onlarla müxtəlif istiqamətlərdə əməkdaşlıqlarını davam etdirirlər. İkincisi, rusiyalı hərbçilər Qarabağa daha çox erməninin qayıdışını təmin etmək məqsədilə orada yaşayış yerləri və iaşə obyektləri tikirlər, Rusiyadan ev heyvanları gətirirlər və s.”

**Aynurə Pənahqızı**



# Türkiyəyə yardım qardaşlıq vəzifəsidir

## Sabir Rüstəmxanlı: “Başqa cür bir millət olmaq mümkün deyil”

**Prezident İham Əliyevin tapşırığına uyğun olaraq, meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə qardaş Türkiyədə olan Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələri yanğınların söndürülməsi əməliyyatlarını peşəkarlıqla davam etdirir.**

Belə ki, Marmaris bölgəsində yanğınlarla mübarizə aparan yanğınsöndürənlərimizin fədakarlığı sayəsində bəzi istiqamətlərdə yanğınların genişlənməsinin qarşısı alınıb. Mürəkkəb dağlıq relyef şəraitinə və havanın yüksək temperaturunun hökm sürməsinə baxmayaraq, Nazirliyin qüvvələri yanğınlarla mətinliklə mübarizə aparır.

Azərbaycan ilk gündən etibarən Türkiyəyə qardaş dəstəyini göstərdi və bu, hər iki tərəfdə rəğbətlə qarşılandı.

**Millət vəkili, Xalq şairi Sabir Rüstəmxanlı Bakının Ankaraya qardaş dəstəyi barədə ”Şərq”ə danışıb:**

”Belə hallar qəfil olur və hansısa ölkə üçün istisna deyil. Bəzən düşmən ölkələr də bir-birilərinə kömək edirlər. Bu, dünyada qəbul olunub. Lakin əlbəttə, Azərbaycanın Türkiyəyə dəstəyi fərqlidir. Bu ənənənin əsası hələ bir əsr əvvəl qoyulub. Biz daim bir-birimizin yanında olmuşuq. Bir millətin iki dövləti var. Deməli, sıxıntı yaşanarsa, birgə mübarizə aparmalıyıq. Şübhəsiz ki, payız gələcək, yağışlar yağacaq və meşələr bərpa olunacaq. Əsas məsələ Azərbaycanın sınaqdan çıxmasıdır. Bu dəstək bizim qardaşlıq vəzifəmizdir. Bir millət olmaq məhz bunu tələb edir. Başqa cür bir millət olmaq mümkün deyil. Biz bundan sonra da daim bir-birimizin yanında olacağıq, tarixi ənənəmiz davam edəcək”.

**Kənan**

# Azərbaycan təzyiq mexanizmlərini işə salmalıdır



## Paşinyan vəzifəsinin icrasına başlayır, onun şərtləri ağır olacaq

“Ermənistanda dünən parlamentin iclasında N.Paşinyanın Baş nazirliyə namizədliyi irəli sürüldü və Prezident Armen Sarkisyan tərəfindən sərəncam verilməklə baş nazir təyin olundu. Artıq N.Paşinyanın rəsmən ölkənin baş naziri olaraq qarşısında duran əsas vəzifə 10 noyabr və 11 yanvar razılaşmalarına əməl edib ölkəni blokadadan çıxarmaq, iqtisadi inkişafa nail olaraq Azərbaycan və Türkiyə ilə əlaqələri bərpa etməkdir. Lakin Paşinyanın buna tezliklə gedəcəyi görünmür".

**Bu sözləri “Şərq”ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.** O bildirib ki, Nikol Paşinyan çalışacaq ki, ölkəsində Rusiyanın mövqelərini zəiflətsin: ”Həmçinin Azərbaycanla sərhəddə təxribatlara əl atacaq. Qarabağda separatizmə dəstək verərək status məsələsini ilkin şərt kimi ortaya qoyacaq. Ermənistandan tezliklə sülh müqaviləsinə və nəqliyyat əlaqələrinin bərpasına gedəcəyini gözləməməliyik. Çünki Rusiya da burada maraqlı deyil. Rusiya yalnız Azərbaycan onun orbitində yer almaqla mümkün razılaşmalara işıq yandıracağı mesajlarını verir. Ötən gün V.Jirinoviskinin Azərbaycana qarşı təhdidləri bu siyasətin tərkib hissəsidir. Ermənistanla üçtərəfli imzalanan sənədlərin sənəd olaraq qalmaq ehtimalı var. Həmçinin sərhədlərin delimitasiya və demarkasiyasında da erməni tərəfi danışıqlarda maraqlı olmayacaq. Rusiya da Ermənistan və Azərbaycan münasibətlərinin normallaşmasına imkan verməyəcək. Xüsusilə 10 noyabr və 11 yanvar razılaşmalarının konkret olaraq Rusiyanın maraqları çərçivəsində kağız üzərində qalması mümkündür. Ona görə də Azərbaycan sərhəddə maksimum Ermənistana təzyiq etməli, Qarabağdakı erməni silahlı birləşmələrinə qarşı mümkün lokal əməliyyatlar həyata keçirməlidir”.

O qeyd edib ki, Nikol Paşinyan artıq baş nazir olaraq rəsmi vəzifəsinə başlayır və Azərbaycan Ermənistandan mümkün razılaşmalara əməl etməsini tələb etməlidir: ”Ermənistanın dövlət sərhədində təxribatlarına qarşı ciddi əks həmlə ilə sülhə məcburetmə əməliyyatları olmalıdır. Belə olmayacağı təqdirdə Azərbaycana mümkün şəkildə şərtlər irəli sürüb, Qərbin dəstəyi ilə vəziyyəti dəyişməyə cəhd edəcək. Amma buna nail olması mümkün görünmür. Rusiyanın mövqeyinə gəldikdə isə bundan sonra Ermənistan hakimiyyəti ilə Rusiya rəhbərliyi arasında problemlərin baş verməsi gözlənilir. Azərbaycan bu imkanlardan istifadə edib, Ermənistanı razılaşmalara əməl edilməsinə sövq edə bilər”.

**Aynurə Pənahqızı**

# Müharibə hələ bitməyib




## Türkiyəli jurnalist: "Ermənistan ABŞ, Fransa və İrandan dəstək alır"

Qarabağ ətrafında baş verən proseslər hələ də dünya ictimaiyyətinin diqqətindədir. Çünki Ermənistan "ən zəif bənd" olduğu halda, "pas" demir. Kimə, nəyə ümid etdiyi məlum deyil. Sadəcə, "suya düşən saman çöpündən yapışar" misalı elə hey vurnuxur. Ola bilsin, özü də başa düşmür ki, dünya güclərinin əlində alətdən başqa bir şey deyil.

**"Şərq" olaraq İrəvanın bu sərsəm ritorikası və proseslərin gələcək inkişafı ilə bağlı türkiyəli hərbi jurnalist, "TV net" kanalının əməkdaşı İsmail Umut Arabacı ilə söhbətləşdik:**

**- Ermənistan məğlub tərəf olmasına rəğmən, təxribatlarından əl çəkmir. Bunu hansı məntiqlə edir?**

- Bu, təxminən PKK-nın davranışlarına bənzəyir. Terrorçular Türkiyə sərhədində təxribatlar törədirlər. Sonra isə Qərb mətbuatı aqressor kimi bizi göstərir. Ermənilərin etdiyi də budur: necə deyərlər, həm suçlu, həm güclü durumuna düşmək.

**- Elə isə sözügedən proseslərin sonu nə olacaq?**

- Fikrimcə, Qarabağ müharibəsi hələ bitməyib. Üçüncü savaş da olacaq. Bu, qaçılmazdır. Ermənistan hazırda ABŞ, Fransa və İrandan ciddi dəstək alır. Hətta həmin dövlətlərin ordularını sərhəddə yığmağa çalışır. Çünki Rusiyaya tam güvənmir. İrəvan indi güc toplayır, əsgər yığır, təminatını artırır. Sizi inandırım ki, düşmən özünə gələn kimi yeni hücumlara başlayacaq.

> **"Sizi inandırım ki, düşmən özünə gələn kimi yeni hücumlara başlayacaq"**

**- Bir müddət əvvəl Prezident İlham Əliyevlə rusiyalı həmkarı Vladimir Putin arasında görüş oldu. Və sanki həmin müzakirədən sonra proseslər bir az da mürəkkəbləşdi...**

- Moskva Suriya senarisini təkrarlayır: terrorçunu dəstəkləyir və sonra bunu inkar edir. Məsələ ondan ibarətdir ki, Rusiya regiona nəzarəti əlində saxlamaq, Qərbi bura buraxmamaq istəyir. PKK-nın "pultunun" Qərbin əlinə keçməməsi üçün nəyi edirsə, yenə onu edir. Hər halda Ermənistan Rusiyanın xəbəri olmadan bircə güllə də ata bilməz. Fikrimcə, gərginlik davam edəcək, təxribatlar səngiməyəcək.

**- Müharibə dövründə Bakı, Şuşaya və Mingəçevirə atılan "İsgəndər-M" raketi məsələsi necə olacaq?**

- Bu məqamı unuda bilmərik. Azərbaycan və Türkiyə məsələni daim gündəmdə saxlamalıdır. Beynəlxalq qurumlara, o cümlədən BMT-yə ardıcıl müraciətlər göndərilməlidir. Sözügedən prosesdə xüsusilə xaricdəki diaspor və lobbinin köməyindən yararlanmalıyıq.

**- Bəs minalı ərazilərin xəritəsini hansı yolla almalıyıq?**

- Düşünürəm ki, Ermənistanla birbaşa ünsiyyətə girməkdənsə, BMT-yə müraciət etmək daha yaxşıdır. Çünki həmin qurumun sözügedən məsələ ilə bağlı konkret sənədləri var. Fikrimcə, belədə daha tez və konkret nəticə əldə edərik.

**- Belə vəziyyətdə media necə davranmalıdır?**

- Media emosiyaya qapılmamalıdır. Nəzərə almaq lazımdır ki, düşmən yazdığımız, çəkdiyimiz hər materialdan istifadə edə bilər. Üstəgəl, Qərb mediası erməni yalanlarını asanlıqla "həzm edir". Bu, işimizi daha da çətinləşdirir. Deməli, indiki məqamda səhvlər bağışlanmır. Soyuqqanlı və şüurlu davranmaq lazımdır. Əlbəttə, öz itkilərimizi açıqlamaya bilərik. Amma düşmənin itkilərini də şişirtməməliyik. Əks halda qarşı tərəfin əlinə "kozır" vermiş olarıq. Ümumiyyətlə, jurnalist tərəfsizliyi yalnız daxildədir. Bəli, biz siyasi partiyalara fərq qoymamalıyıq. Ancaq dövlət və milli maraqları hər şeydən üstün tutmalıyıq.

**Kənan Novruzov**




# Bakının mövqeyləri güclənir

## Minsk qrupu Qarabağdakı reallığı qəbul etməyə məcbur olub

**"Minsk qrupunun sərhəd məsələsinə münasibət bildirməsi təəccüblüdür".**

Bunu "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, həmsədr ölkələr münaqişə bitsə də, bu institut üzərindən bölgədəki maraqlarını həyata keçirməyə çalışırlar: "Onlar sərhəd gərginliyini yeni fürsət olaraq görürlər. Burada iki əhəmiyyətli məqam var. Birincisi, sərhəd gərginliyindən sonra Qarabağ məsələsinin arxa plana keçməsi, "fəaliyyət" göstərməkdə israr edən həmsədrlik institutunun da gündəminin dəyişməsidir. İkincisi, Minsk qrupunun Qarabağdakı reallığı qəbul etməyə məcbur olmasıdır. Rəsmi Bakı Minsk qrupuna artıq ehtiyac olmadığını, fəaliyyət göstərmək istəyirsə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına töhfə verə biləcəyini bəyan edib. May ayında sərhəddə başlanan gərginlikdən sonra Minsk qrupu fəaliyyətini bu istiqamətə yönləndirir. Bu, Bakının postmünaqişə strategiyasına uyğundur".

**Ekspert bəyan edib ki, diqqətçəkən məqamlardan biri də Rusiyanın Minsk qrupundakı həmsədrini dəyişməsidir:** "İqor Popovu İqor Kovayev əvəzlədi. Bu əvəzləmə Rusiyanın Minsk qrupuna münasibətinin də dəyişməsi kimi qəbul edilə bilər. Çünki ABŞ və Fransa həmsədrlərini mütəmadi dəyişsə də, Popov 2010-cu ildən bu postda idi və münaqişənin həllindən sonra dəyişdirildi. Moskva münaqişənin bitdiyi və Minsk qrupunun fəaliyyətinin humanitar, ikitərəfli münasibətlərin düzəldilməsi kimi məsələlərlə məhdudlaşdırılması mövqeyini bölüşür. Yeni rusiyalı həmsədrin fəaliyyəti də Minsk qrupunu bu istiqamətdə yönləndirmək ola bilər".

**İsmayıl**

# "Ermənistanda kriminalizm çiçəklənir"

## "Təsadüfi deyil ki, Koçaryanın, Sarkisyanın prezidentliyi dövründə hər məhəllənin öz kriminal avtoriteti var idi"

**Ermənistan polisinin sabiq rəis müavini, vəkil Hovannes Koçaryan "News.am"a müsahibəsi verib. O, bildirib ki, ölkədə cinayətkarlıq artacaq. Çünki onun inkişafı üçün əlverişli olan hər cür şərait yaradılıb**

"Mövcud cinayət faktorları azalmır, azaldılmır, aradan qaldırılmır, qanunauyğunluğa çevrilir və onlar üçün bütün əlverişli şərait yaradılıb. Cinayətkarlığın azaldılması, cinayət faktorlarının zərərsizləşdirilməsi haqqında danışmağımız üçün ictimai həyatımızda bir sıra müsbət dəyişikliklər, buna gətirib çıxaracaq müsbət yeniliklər etməliyik", - o deyib.

Koçaryan qeyd edib ki, o, optimist proqnozlar üçün ilkin şərtləri görmür. "Cəmiyyət həyəcan içindədir, problemlər ağırlaşır, sosial ziddiyyətlər artır, siyasi sistemdə, cəmiyyətdə də qarşıdurma hökm sürür və bunun fonunda cinayətkarlığın azaldılmasından söhbət gedə bilməz", - Ermənistan polisinin sabiq rəis müavini əlavə edib.





Ermənistanın Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, ötən illə müqayisədə bu il həm ölkənin regionlarında, həm də İrəvanda cinayət hadisələrinin sayı artıb.

**Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu sabiq polis işçisinin açıqlamasını "Şərq"ə təhlil edərkən vurğulayıb ki, Koçaryan Baş nazir Nikol Paşinyanı tənqid etmək istəyib:** "Amma Ermənistanda kriminalizmin tarixinin olduğunu unudur. Ermənistan Avrasiya materikində kriminal avtoritarizm haqqında kitab yazılan yeganə ölkədir. Yəni cinayətkarların sayı bu qədər çoxdur. Cəmiyyətdə kriminal avtoritetlərin xüsusi hörməti var. Təsadüfi deyil ki, Koçaryanın, Sarkisyanın prezidentliyi dövründə hər məhəllənin öz kriminal avtoriteti var idi".

**M. Əhmədoğlunun sözlərinə görə, bu, Ermənistanın sonunu gətirəcək:** "Düşmən ölkədə bütün sahələr gerilədiyi halda, kriminalizm "çiçəklənir". Beləliklə, Ermənistan yaxın gələcəkdə kriminal dövlətə çevriləcək. Məsələ ondan ibarətdir ki, ermənilər etnos kimi "qocalıblar". Onlar "ölüm" ərəfəsindədirlər. Və eynilə şumerlər, akkadlar kimi məhv olacaqlar. Bunu özləri də başa düşürlər. Təsadüfi deyil ki, ermənilərin şüuraltında "mənəm, mənəmlik" hökm sürür. Hətta Qarabağ müharibəsi zamanı da daxili intriqalar səngimədi. Yəni erməni etogenində kriminalizmin öz yeri var. Bu, onlar üçün Qarabağ məsələsindən də prioritetdir".

**Kənan**



# Baş naziri yenə fiasko gözləyir

## Nikol Paşinyanın heç bir manevr imkanları qalmayıb

Ötən gün baş nazir əvəzi Nikol Paşinyan Ermənistanın Baş naziri təyin olunub. Bu barədə Ermənistan Prezidenti Armen Sarkisyan Fərman imzalayıb. Qeyd edək ki, N.Paşinyanın baş nazir vəzifəsinə namizədliyi parlament çoxluğu - "Vətəndaş müqaviləsi" fraksiyası tərəfindən irəli sürülüb.

Qeyd edək ki, N.Paşinyanın baş naziri vəzifəsinə namizədliyi parlament çoxluğu - "Vətəndaş müqaviləsi" fraksiyası tərəfindən irəli sürülüb. Ermənistan Konstitusiyasına əsasən, ölkə Prezidenti yeni seçilmiş Milli Məclis səlahiyyətlərinin icrasına başlayandan sonra parlament çoxluğu tərəfindən namizədliyi irəli sürülmüş şəxsi baş nazir vəzifəsinə təsdiqləyir.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov deyib ki, Nikol Paşinyanın baş nazir təyin olunacağı gözlənilən idi.** Analitik qeyd edib ki, baş nazirin bundan sonra edəcəyi və atmalı olduğu bir sıra addımlar var: "Atmalı olduğu addımlardan ən birincisi, əlbəttə ki, 10 noyabr bəyannaməsinin və 11 yanvar Moskva görüşünün detallarının reallaşdırılmasıdır. Yəni bu sahədə artıq əməli və praktiki siyasət həyata keçirilməlidir. Düşünürəm ki, özəlliklə də Zəngəzur dəhlizinin açılması məsələsində artıq Nikol Paşinyanın heç bir manevr imkanları qalmayıb. Həmçinin, o, Azərbaycanın reallaşdırdığı regional layihələrdən də istifadə edərək, xaosa və süquta uğramış Ermənistan iqtisadiyyatını dirçəltmək, bölgədə etimad mühitini yaratmaq üçün addımlar atmalıdır. Amma görünən odur ki, Nikol Paşinyan hələ də regiona başqa dövlətləri daxil etmək istəyir. Özəlliklə artıq son 10-15 gün ərzində Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi daha da güclənib. Nikol Paşinyan Rusiyanın sülhməramlı qismində Qarabağda olması ilə razı deyil. Buna görə də ABŞ-ı, Fransanı bölgəyə daxil etmək istəyir".

*T.İsmayılov diqqətə çatdırıb ki, Paşinyan ATƏT-in Minsk qrupunun canlandırılması üçün də əlindən gələni etməyə çalışır:* "Bilirsiniz ki, Paşinyan müharibə dövründə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək üçün əlindən gələni etdi. Lakin fiaskoya məruz qaldı və bu sevdasından vaz keçdi. Onu qızışdıran Qərb dövlətlərinin də əslində praktiki olaraq hansısa addımlar atacağını düşünmürəm, xüsusən də hərbi formada regionda təmsil olunmaq. Bu baxımdan Nikol Paşinyan bu arzusunun da regionda fiaskoya uğradığını görüb 10 noyabr bəyanatının şərtlərinə əməl etməyə məcburdur. Əks təqdirdə nələrlə qarşılaşacağını çox yaxşı anlayır".

**Aynurə Pənahqızı**

## Müzakirə aparılmır

### Azərbaycanda referendumun keçirilməsi və parlamentin buraxılması məsələsi gündəmdə yoxdur



**"Azərbaycanda referendumun keçirilməsi və parlamentin buraxılması məsələsi gündəmdə yoxdur".**

Bu barədə "Report"a hökumətdəki mənbələrdən məlumat veriblər.

"Ölkə Konstitusiyasına heç bir dəyişiklik nəzərdə tutulmur. Hazırda hökumətdə belə bir plan yoxdur və bununla bağlı heç bir müzakirə aparılmır. Bu cür məlumatların yayılması əsassızdır və həqiqəti əks etdirmir. Ona görə də belə bir həssas dönəmdə kütləvi informasiya vasitələrini ictimai rəyi çaşdırmamağa və yoxlanılmamış məlumatların tirajlanmasına yol verməməyə çağırırıq", - mənbə qeyd edib.

## Ermənistan parlamentinə yeni sədr seçilib

### Müxalifətin parlamentdəki nümayəndələri səsvermədə iştirak etməyib



**Ermənistan Milli Məclisinin sədri vəzifəsinə iqtidardakı Mülki Müqavilə Partiyasının nümayəndəsi, əvvəlki parlamentin sədr müavini Alen Simonian seçilib.**

"Report" yerli KİV-ə istinadən xəbər verir ki, bunu parlamentin iclası zamanı hesablama komissiyasının sədri Narek Babayan bildirib. O qeyd edib ki, 107 millət vəkilindən səsvermədə iştirak edən 71-nin hamısı A.Simonianın lehinə səs verib.

*Müxalifət partiyalarının parlamentdəki nümayəndələri səsvermədə iştirak etməyiblər.*

# Naxçıvan təxribatları təsadüfi deyil

## Düşmən sərhədlərin müəyyənləşməsinə əngəl yaratmağa çalışır

Ermənistan silahlı qüvvələri Naxçıvan istiqamətində atəşkəsi demək olar ki, hər gün pozmaqdadır. Müdafiə Nazirliyinin məlumatına görə, erməni silahlıları Naxçıvanın Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində mütəmadi olaraq mövqelərimizi atıcı silahlardan atəşə tuturlar. Siyasi şərhçilərin fikrincə, Ermənistan silahlı qüvvələrinin Naxçıvana atəş açmasının məqsədi konkret hansısa nəticələr əldə etmək deyil.

Ümumiyyətlə, Ermənistan son günlərdə Azərbaycanla dövlət sərhədini birtərəfli qaydada pozaraq, mövqelərimizi atəşə məruz qoyub. Məlum olduğu kimi hazırda sərhədlərin müəyyənləşməsi prosesi gedir. O cümlədən, Qazaxın 7, Naxçıvanın Kərki kəndinin boşaldılması, Zəngəzur dəhlizinin və bütün kommunikasiyaların açılması məsələləri ciddi müzakirə olunur. Məğlub Ermənistan isə çalışır ki, zəif mövqe ilə danışıqlara getməsin. Çünki bu halda öz maraqlarını təmin edə bilməyəcəyini yaxşı bilir. Ermənistan KTMT-dən, Rusiyadan ciddi dəstək ala bilməyəcəyini bildiyinə görə 3-cü, 4-cü qüvvələri prosesə cəlb etməyə çalışır.



Naxçıvan Türkiyənin zəmanəti altındadır. Fransa da Türkiyə ilə öz çəkişməsini məhz Naxçıvan, Qarabağ üzərindən davam etdirməyə çalışır. Yəni Naxçıvanın atəşə tutulmasının bir səbəbi Azərbaycanla bağlı geosiyasi maraqlardırsa, digər səbəbi qardaş Türkiyədir. Bu həm də Türkiyəyə mesajdır.

**Ermənistan silahlı qüvvələrinin davamlı təxribatı ilə bağlı "Şərq"ə danışan Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə deyib ki, 10 noyabr bəyannaməsinə əsasən, Ermənistan-Azərbaycan arasında sərhədlərin demarkasiya və delimitasiya prosesi başlamalı və sona çatdırılmalıdır**. Partiya rəhbərinin sözlərinə görə, sərhəd məsələsinin yekunlaşması qaçılmazdır, labüddür: "Azərbaycan-Ermənistan sərhədləri birmənalı müəyyən olunmalıdır. Əsasən, müzakirə olunan məsələ iki ölkə arasındakı sərhədlərin SSRİ dövründəki xəritələrə uyğunlaşdırılması ilə bağlıdır. Azərbaycan Ordusu sovet vaxtı müəyyən olunmuş qanuni sərhədlərimizə doğru irəlilədikcə, Nikol Paşinyan Rusiya tərəfi ilə bir neçə dəfə danışıqlara gedib. Amma açıq-aşkar görünən odur ki, Moskva sərhəd məsələsində loyal mövqe tutur və rəsmi Bakının haqlı yanaşmasını dəstəkləyir. Belə şəraitdə Ermənistan kənarda qalır və müəyyən təxribatlarla başqa dövlətlərin, xüsusən Qərb ölkələrinin diqqətini Cənubi Qafqaza çəkməyə çalışır. Naxçıvanın Kərki, eləcə də Qazaxın 7 kəndi hələlik ermənilərin nəzarətindədir və mütləq Azərbaycan tərəfinə təhvil verilməlidir. Ermənistan tərəfi 30 illik işğaldan istifadə edərək xüsusən, Zəngilan və Kəlbəcər istiqamətində dövlət sərhədlərini Azərbaycan hüdudlarından xeyli irəli çəkiblər. Rəsmi Bakı sərhədlərin geriyə çəkilməsi, ən azı sovet dövründə təsdiqlənmiş sənədlər çərçivəsində müəyyən olunması uğrunda siyasi-hərbi mübarizə aparır. Ona görə də İrəvan hökuməti Kəlbəcər və Naxçıvan istiqamətində davamlı təxribatlara əl atır. Məqsəd bölgədəki vəziyyəti mümkün qədər gərginləşdirmək, sərhəd məsələsini yubatmaqdır".

**A.Əlizadə vurğulayıb ki, Ermənistan sərhəddə təxribatlara rəvac verməklə ATƏT-in Minsk qrupunun həmsədrlərini, daha dəqiq ifadə etsək, ABŞ və Fransanı prosesə cəlb etmək niyyəti güdür:** "Həmçinin, KTMT-ni, yaxud fransız qoşunlarını sərhədə "dəvət" edir. İrəvan yaxşı bilir ki, beynəlxalq güclərin Azərbaycan-Ermənistan sərhəd məsələsinə müdaxiləsi bu məsələni xeyli ləngidəcək. Aydın görünür ki, prosesdə təkcə Rusiyanın iştirakı Ermənistana sərf etmir. O səbəbdən çıxış yolu kimi məsələni beynəlxalq müstəviyə çıxartmaq istəyirlər".

**İsmayıl Qocayev**



# Kəlbəcərdə təxribatlara hazır olmalıyıq

## İstehkam işləri tez yekunlaşmalı və sərhəd qışa qədər möhkəmlənməlidir

Dünən Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib. Müdafiə Nazirliyindən bildirilib ki, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmələrin komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunub.

Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdıran nazir bu tapşırıqların icrası ilə bağlı komandir-rəis heyətinə müvafiq əmr və göstərişlər verib. Son zamanlar Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər istiqamətində baş verən hadisələri təhlil edən müdafiə naziri Ermənistan silahlı qüvvələri tərəfindən törədilə biləcək istənilən təxribata hazır olmağı və onların qarşısının dərhal alınmasını əmr edib. Nazir döyüş və maddi-texniki təminat məsələlərinə diqqətin artırılmasını tələb edib.

**Mühüm toplantı ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi, jurnalist Aqşin Kərimov görüşdə diqqət çəkən məqamlara toxunub:** "Müdafiə naziri Zakir Həsənov Kəlbəcər istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən törədilə biləcək istənilən təxribata hazır olmağı və onların qarşısının dərhal alınmasını əmr edib. Bu o deməkdir ki, Kəlbəcərdə dövlət sərhədinin delimitasiyası başa çatmayıb və gələcəkdə proses ağrılı keçə bilər. Lakin elə məna yükləmək olmaz ki, genişmiqyaslı toqquşma ehtimalı yüksəkdir. Bununla belə ayıq-sayıqlıq şərtdir. Nazir döyüş planlarının dəqiqləşdirilməsini də tələb edib. Əslində hər hərbi hissənin özünün döyüş xəritəsi, planı olur. Görünür ki, bölmələrin dövlət sərhədinin Kəlbəcər istiqaməti ilə bağlı konkret döyüş planı yoxdur. Ancaq



buna baxmayaraq, ordumuz orada da möhkəmdir və konkret döyüş planı olmadan da məqsədinə nail olur".

*A.Kərimov bəyan edib ki, döyüş planı dəqiqləşərsə, gələcəkdə baş verən təxribatlara qarşı daha optimal və konkret cavablar veriləcək və Ermənistanın əli-qolu tamamilə bağlanacaq:* "Zakir Həsənov qoşunların mühəndis təminatı tədbirlərinin sürətləndirilməsini də tapşırıb. Bu isə o deməkdir ki, maksimum şəkildə istehkam işləri tez yekunlaşmalıdır və sərhəd qışa qədər möhkəmlənməlidir".

**İsmayıl Qocayev**

## Eldəniz Səlimov YAP-dan kənarlaşdırıldı



**Polisi döyən deputat Eldəniz Səlimov Yeni Azərbaycan Partiyasının (YAP) sıralarından xaric edilib.**

Bununla bağlı YAP Xaçmaz rayon təşkilatının İdarə Heyəti qərar imzalayıb.

*Qərara əsasən, partiyanın nüfuzuna xələl gətirən hərəkətləri ilə əlaqədar Eldəniz Səlimov YAP üzvülüyündən xaric edilib.*

## Füzulidə 4 erməni hərbçinin meyiti aşkarlanıb



**Azərbaycanın Füzuli rayonu ərazisində Ermənistan ordusunun 4 hərbçisinin meyiti tapılıb.**

"Report" xəbər verir ki, məlumatı "Aysor" yayıb. Onların kimliyi məhkəmə-tibbi ekspertizasından sonra müəyyən ediləcək.

Məlumata görə, Azərbaycanın işğaldan azad edilən ərazilərindən 2020-ci il noyabrın 10-dan sonra 1 623 nəfərin meyiti aşkarlanaraq Ermənistana təxliyə edilib.

*Xatırladaq ki, meyiti tapılan hərbçilər İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan Ordusu tərəfindən məhv ediliblər.*

# PKK izi görünür

## Yanğınların turizm zonasında törədilməsi təsadüfi ola bilməz



Türkiyənin cənub bölgələrini bürüyən və günlərdir həyatı zəhərə çevirən meşə yanğınları ilə mübarizə davam edir. Əfsuslar olsun ki, dəhşətli yanğınlarda həyatını itirənlərin sayı artmaqdadır. Səhiyyə naziri Fəxrəddin Qoca yanğın nəticəsində 8 nəfərin öldüyünü, 864 nəfərin isə yaralandığını deyib.

Meşə və kənd təsərrüfatı naziri Bekir Pakdemirli bildirib ki, indiyədək 125 yanğından 117-si nəzarətə alınıb, bəziləri isə tamamilə söndürülüb. Pakdemirli Antalyanın Manavqat rayonu, Gündoğmuş qəsəbəsində, Muğlanın Marmaris, Milas rayonlarında, Göyçeğiz, Kavaklıdərə qəsəbələrində, Menteşe, Seyidlikəmər məhəllələrində, Tunceli vilayətinin Hozat rayonunda yanğınların davam etdiyini deyib. Muğlanın Milas rayonunda meşəlik ərazidə başlayan yanğın küləyin təsirindən daha da şiddətlənib. Manavqatın Sırtköy bölgəsində alovların hündürlüyü 20 metrədək yüksəlib. Marmarisin Turunç məhəlləsində isə əhalinin evakuasiyasına başlanılıb. Milasın Gökbel kəndi tamamilə boşaldılıb. Ölkənin Milli Müdafiə Nazirliyi Muğlanın Marmaris bölgəsindəki meşə yanğını səbəbilə Turunç bölgəsindəki vətəndaşların təxliyəsi üçün bölgəyə iki gəmi göndərildiyini açıqlayıb. Yanğın təhlükəsinə görə, bir çox məhəllə sürətli şəkildə boşaldılıb. Qeyd olunub ki, yanğınların söndürülməsində ümumilikdə 16 təyyarə, 9 pilotsuz uçuş aparatı, 45 helikopter, 6 idarəetmə və bir 1 pilotsuz helikopter, 708 suçiləyici, 120 inşaat maşını, 4800 heyət iştirak edir.

Yanğının qəsdən törədilməsi ilə bağlı müzakirələrin getdiyi bir vaxtda PKK terror təşkilatı yanğını özünün törətdiyini boynuna alıb. "Alov uşaqları" adlı terror təşkilatı Türkiyədə günlərdir davam edən meşə yanğınlarına görə məsuliyyəti üzərinə götürüb: "Türk rejimi başqa bir dil anlamadığına görə, onları yanğınla diz çökdürməyin zamanı gəlib". Dronlar və təhlükəsizlik kameraları ölkənin ayrı-ayrı yerlərində eyni saatda meşə yanğınlarının "Molotov kokteyli" vasitəsilə törədildiyini qeydə alıb. Qeyd edək



Arzu Nağıyev: "Terror təşkilatlarının praktikasında belə əməllər dəfələrlə qeydə alınıb"

ki, "Alovun uşaqları" qruplaşması PKK terror təşkilatına bağlıdır. Daha əvvəl Türkiyənin ayrı-ayrı KİV-ləri meşə yanğınlarında PKK terror təşkilatı üzvlərinin əlinin ola biləcəyi ehtimalını irəli sürüb. Türkiyənin Manisa əyalətinin Turqutlu rayonunda PKK terror təşkilatının meşə yanğınları törətməkdə şübhəli bilinən üzvləri də yaxalanıb. Keçən il Türkiyədə baş verən yanğınları da "Alovun uşaqları" öz üzərinə götürüb. Ümumiyyətlə, 1990-cı illərdən etibarən meşə sabotajlarını terror aktı kimi mənimsəyən PKK ötən illər ərzində çox sayda yanğın törədib. PKK-nın terrorçu başı Murat Karayılan 2020-ci ildə öz tərəfdarlarına "Meşələri yandırın" təlimatını verib. Türkiyə rəsmiləri hadisənini terror aktı olduğunu istisna etməyiblər. Hətta bəzi ekspertlər bildiriblər ki, "Alovun uşaqları"ı daim erməniləri müdafiə edib. Terror təşkilatının yaranmasının təşəbbüskarı ASALA-dır. Onların təlimləri də ASALA kamplarında keçirilib. 2019-cu və 2020-ci illərdə erməniləri müdafiə edən bu terror təşkilatının maliyyəçiləri içərisində Amerika və Fransadakı erməni fondları yer alıb.

**Millət vəkili, təhlükəsizlik xidmətinin sabiq əməkdaşı Arzu Nağıyev "Şərq"ə açıqlamasında vurğulayıb ki, zaman-zaman müxtəlif terror təşkilatları təbii fəlakət adlanan hadisələrdən sui-istifadə edirlər.** Deputatın sözlərinə görə, terror təşkilatlarının praktikasında belə əməllər dəfələrlə qeydə alınıb: "Nəzərə alaq ki, yanğınlar əsasən turizm sektorunun geniş yayıldığı ərazilərdə baş verib. Ona görə də haqlı olaraq yanğınlarla bağlı müəyyən versiyalar gündəmə gəlir. Türkiyədə yanğınların kənardan müdaxilə ilə baş verməsi ehtimalı yüksəkdir. Bu, çox ciddi məsələdir. Məlumdur ki, PKK-ya yaxınlığı ilə bilinən "Alovun uşaqları" adlı təşkilat yanğınları törətdiklərini etiraf etdi. Əlbəttə, versiyaların hamısı ciddi yoxlanmalıdır. Məhz turizmin inkişaf etdiyi bir məqamda belə yanğınların üzə çıxması təsadüfi sayıla bilməz. Həm də Türkiyə daxilindəki siyasi proseslərdə bunu xüsusi qabartmağa çalışırlar. Məsələyə kompleks yanaşsaq, kənar müdaxiləni istisna etmək olmaz. Yanğınlar bir neçə istiqamətdə ciddi itkilərə yol açmaqdadır. Əfsuslar olsun ki, insan itkisi də artır. Sakinlərin təxliyəsi, təhlükəsizliyin təmin edilməsi, yanğınların tam söndürülməsi, istirahət zonalarının, ziyan dəymiş mənzillərin və yanmış meşə zolağının bərpası üçün ciddi maliyyə vəsaiti tələb olunur. Amma qardaş Türkiyənin bütün problemlərin öhdəsindən gələcəyinə şübhəmiz yoxdur".

**İsmayıl Qocayev**

Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 671 yeni yoluxma faktı qeydə alınıb. 202 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, son sutka ərzində koronavirus infeksiyasından dörd nəfər ölüb. İndiyədək ölkədə ümumilikdə 344 520 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 333 128 nəfər müalicə olunaraq sağalıb, 5 027 nəfər vəfat edib, aktiv xəstə sayı 6 365 nəfərdir.




# "Delta" ştammından qoruyur

## Azərbaycanlı alimin dərman kəşfi koronavirusun bütün versiyalarına qarşı uğurludur



### "Vaxtı ilə mənim kəşf etdiyim "Aktipol" preparatı gözü radiasiyadan mühafizə edir"

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 400, ötən müddət ərzində isə ümumilikdə 4 043 740 test aparılıb.

Yenicə rahat nəfəs almağa başlamışdıq ki, iki ildir tanıdığımız COVİD bunu bizə çox gördü. Arzuolunmaz tendensiyaya uyğun olaraq yenidən qapanmalar gözlənilir. Ən vacib sual isə bu bəladan canımızın nə vaxt qurtaracağıdır...

**"Şərq" olaraq bu və digər məqamlarla bağlı həkim-oftolmoloq Paşa Qəlbinurla söhbətləşdik:**

**- Artan yoluxma faktı nələr vəd edir?**

- Bu tendensiya təkcə ölkəmizdə yox, bütün dünyada müşahidə olunur. Koronavirusun canlar aldığı məlumdur. Deməli, onunla zarafat olmaz. Amma qaydalara əməl etmək kifayətdir ki, COVİD-in qurbanına çevrilməyəsən.

**- Növbəti qapanma barədə nə düşünürsünüz?**

- Əgər yoluxma bir az da artsa, bu, zəruri olacaq.

**- Vaksinlə bağlı müxtəlif iddialar var...**

- Həmin iddiaların heç birinin məntiqi əsası yoxdur. Çip və s. kimi şayiələr həqiqətə uyğun deyil. Bütün əzizlərimə, Azərbaycan xalqına peyvənd olunmağı tövsiyə edirəm.

**- "Delta" ştammı ilə bağlı deyirlər ki, müalicəsi yoxdur. Mütləq insanın gözü çıxarılmalıdır. Bu nə qədər doğrudur?**

- Hər ştammın öz səciyyəvi xüsusiyyətləri var. Məsələ ondan ibarətdir ki, viruslar ağzın, burunun və gözün selikli qişası ilə keçə bilir. Və "Delta" ştammı daha çox üçüncü ilə yoluxur.

**- Necə qorunmaq olar?**

- Vaxtı ilə mənim kəşf etdiyim "Aktipol" preparatı gözü radiasiyadan mühafizə edir. Dünya alimləri də təsiqləyiblər ki, həmin dərmanı koronavirusun bütün versiyalarına qarşı istifadə etmək olar.

**- Nə vaxt bu xəstəliklə birdəfəlik vidalaşa biləcəyik?**

- Bunu dəqiq demək çətindir. Ən ciddi pandemiyalar, o cümlədən vəba xəstəliyi dörd il davam edib. İnanıram və ümid edirəm ki, mövcud qaydalara əməl etməklə biz COVİD-ə daha tez qalib gələ biləcəyik.

**Kənan Novruzov**

# "Aslansın..."

## Azərbaycanlı pilotun cəsarətinə türklər heyran oldu



**Azərbaycanlı yanğınsöndürənlərin Türkiyədə göstərdiyi fədakarlıq qardaş ölkənin mediasının da diqqətindədir.**

Sosial mediada yayılan görüntülərdə Fövqəladə Hallar Nazirliyinə məxsus "Amfibiya" təyyarəsinin yanğınsöndürmə işlərində fəal iştirak etdiyi müşahidə olunur. Pilotumuzun yerə yaxınlaşaraq, suyu alovun üzərinə dəqiq boşaltması türklərin alqışını qazanıb.

*Qeyd edək ki, bəzi hallarda pilotlar yanğına bu qədər yaxınlaşmağa cəsarət etmirlər. Onlar təhlükə ilə üzləşməmək üçün suyu alovun üzərinə yuxarı məsafədə boşaldırlar ki, bu da səmərəli nəticə vermir.*

# 431 yeni yoluxma faktı qeydə alınıb

## 139 nəfər müalicə olunaraq sağalıb, 3 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 431 yeni yoluxma faktı qeydə alınıb, 139 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 344 951 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 333 267 nəfər müalicə olunaraq sağalıb, 5 030 nəfər vəfat edib, aktiv xəstə sayı 6 654 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 238, ötən müddət ərzində isə ümumilikdə 4 049 978 test aparılıb.*

# Vaksinasiyaya inamsızlığın kökü var

Sosial Tədqiqatlar Mərkəzi vətəndaşların COVID-19 pasportu, vaksinasiya, ilin ilk altı ayına və toylara münasibətlərini öyrənib. STM bununla bağlı rəy sorğusunun nəticələrini açıqlayıb. Vaksinasiya münasibətlə bağlı sorğuda da iştirak edənlərin 57 faizi ən azı bir doza vaksin qəbul edib. Vaksin olunmayan 43 faiz respondentin vaksin olunmamaqla bağlı ifadə etdiyi səbəblər isə müxtəlifdir.

## Vaksindən sonra kimlərinsə vəfat etməsi barədə məlumatlar, şayiələr insanlarda qorxu yaratdı



Diqqət çəkən məqam odur ki, əhəmiyyətli sayda - 28 faiz respondent heç bir halda vaksin olunmayacağını bildirib. Təqaüdçülərin təxminən 40 faizi, evdar qadınların isə 31 faizi heç bir halda vaksin olunmayacağını deyib. 19 faiz respondent isə yalnız məcburiyyət əsasında vaksin olunmağa razılıq verəcəyini deyib. Daha dəqiq, həmin respondentlər vaksinasiyanın ölkə miqyasında icbari olacağı təqdirdə doza qəbul edəcəklərini bildirib. 18-35 yaş aralığında olanlar arasında vaksinə mənfi münasibət yaşlılara nisbətdə daha çoxdur. Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran və Qarabağ regionlarında heç bir halda vaksin olunmayacağını deyənlər bəzi bölgələrə nisbətdə 2 dəfə çoxdur.

Aparılan sorğudan belə qənaətə gəlmək mümkündür ki, əksər insanlar vaksinasiyaya inamsızdır. Bəs bunun səbəbləri nə ilə əlaqəlidir?

**Sualımızı sosioloq Lalə Mehralı cavablandırıb. O, "Şərq"ə açıqlamasında vurğulayıb ki, vaksinasiyaya inamsızlığın bir neçə səbəbləri var. Onun sözlərinə görə, ən birincisi, vaksinasiya prosesinin qəfildən meydana çıxmasıdır:** "Çünki bildiyimiz kimi, bir vaksinin hazırlanması illər tələb edir. O əvvəlcə digər canlılar üzərində sınaqdan keçirilir. Daha sonra onun insan bədənində uyğunlaşıb, uyğunlaşmamağı barədə təcrübələr aparılır. Ancaq bu günləri vaksinlərin o təcrübələrdən keçib-keçməməyi ilə bağlı insanların içində bir şübhə var. Çünki vaksindən sonra bəzi insanların təkrar koronaya yoluxması və yaxud da ki, vaksindən sonra kimlərinsə vəfat etməsi barədə məlumatlar, şayiələr yayıldı. Buna görə də hamıda peyvəndlə bağlı bir təlaş, qorxu, inamsızlıq yarandı. Statistik məlumatlar arasında xüsusən təqaüdçülər üstünlük təşkil edir. Bunun səbəbinə gəlincə, bilirsiniz ki, pensiyaçılar daha çox yaşlı nəslin nümayəndələridir. Bu xəstəliyin qurbanı məsələsində onların adı daha çox çəkilir. Yəni yanaşı xəstəliyi olan yaşlı nəsil koronaya yoluxanda onlar çox zaman sağala bilmir. Yanaşı xəstəliyi olduğu üçün vaksinasiya olunanda da yenə problem yaranır. Tutaq ki, hər hansı orqanının çökməsi prosesi baş verir və ölüm faktı qeydə alınır. Bu da ondan irəli gəlir ki, həmin şəxsin orqanlarında problem var və dözmür. Təbii ki, bir çox insanlar bu prosesləri düzgün anlamır və onları düzgün analiz edə bilmirlər. Məhz bu səbəblərdən insanlar arasında vaksinasiyaya qarşı inamsızlıq görülməkdədir".

**Aynurə Pənahqızı**

# Hədəf Rusiyadır



*"Taliban" ABŞ-ın gücü ilə bütün hakimiyyətə yiyələnəcək*

## "Əfqanıstanın yeni xəritəsində artıq Əşrəf Qəniyə yer yoxdur"

Ötən gün Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qəninin parlamentin iclasındakı çıxışı "Taliban" qruplaşmasının narazılığına səbəb olub. Belə ki, prezident çıxışı zamanı bildirib ki, "Taliban" dəyişib və onlar daha qəddar olublar. Onun sözlərinə görə, döyüşdə şərait dəyişməyənədək "Taliban" danışıqlar masasına qayıtmaq istəyini göstərməyəcək.

"Taliban" qruplaşmasının nümayəndəsi Zabiullah Mücahid Prezident Əşrəf Qəninin çıxışına münasibət bildirərək tviter səhifəsində yazıb: "Əşrəf Qəninin çıxışı əsassızdır. O, qorxu və ağlamalı şərait yaratmaqla vəziyyətə nəzarət etməyə cəhd göstərir. Müharibə elan etmək, ittiham və yalanlar Əşrəf Qəninin hakimiyyətini uzatmayacaq. Onun müddəti başa çatıb".

*Mövzu ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli "Şərq"ə açıqlama verib. O, açıqlamasında xüsusi olaraq diqqətə çatdırıb ki, Əfqanıstanın yeni xəritəsində artıq Əşrəf Qəniyə yer yoxdur:*

"Ümumiyyətlə, Amerika Birləşmiş Ştatlarının orada inşa etdiyi hökumət vaxtilə işğal rejiminə haqq qazandırmaq üçün yaradılıb. Yəni o, bir oyuncaq hökuməti idi. Həmçinin, əfqan xalqının da ümumi iradəsini əks etdirmirdi. Biz İŞİD və "Taliban"ın adlarını yanaşı da çəksək, ümumiyyətlə, ora dini təmayüllərin güclü olduğu cəmiyyətdir. Və bu ixrac olunmuş din bütövlükdə son 40-50 il ərzində Əfqanıstanın taleyini dəyişdirib".

**Ə.Əlibəyli qeyd edib ki, hazırda "Taliban" Əfqanıstan ərazisinin 90 faizinə nəzarət edir:** "Çox az qalıb ki, "Taliban" artıq paytaxtı və o cümlədən vacib nöqtələri də nəzarətə götürəcək. Hesab edirəm ki, bundan sonra biz nə Əfqanıstan hökumətini, nə də ki, Əşrəf Qəninin adını daha eşitməyəcəyik. Sual yarana bilər. Hazırda Əfqanıstanda son proseslər nəyə işarədir? Son proseslər ona işarədir ki, Birləşmiş Ştatlar bütövlükdə Əfqanıstanda yenidən "Taliban"a meydan açmaqla və onu hakimiyyətə gətirməklə artıq talibançılığı, dini ekstremizmi və radikalizmi Orta Asiya ölkələrinə ixrac etməyi qarşısına məqsəd qoyub. Burada da əsas hədəf xüsusilə Tacikistan vasitəsilə Rusiya coğrafiyasına, yəni onun sərhədlərində ciddi şəkildə "bombalar" yerləşdirməkdir. Rusiyanın başına sözün əsl mənasında daha ciddi problemlər açmaqdan ibarətdir. Siz fikir verin ki, bu, Bayden hakimiyyətə gəldikdən sonra daha geniş bir əhatə alıb. Burada da əsas məsələ odur ki, Bayden 4 il ərzində necə olur-olsun Rusiyanı cəzalandırmağı qarşıya məqsəd qoyub. Rusiyanın xəritəsinə nəzər yetirdikdə bütün xəritə boyunca ortaya çıxarılan münaqişələrin hamısının hədəfi də məhz bundan ibarətdir".

**Aynurə Pənahqızı**



## Əlverişli şərait yaranıb

### İsraildə diplomatik nümayəndəliyimizin açılması əməkdaşlığı gücləndirəcək

**Bir neçə gün əvvəl İsrailin Təl-Əviv şəhərində Azərbaycanın Ticarət və Turizm nümayəndəlikləri açılıb.**

Bu barədə Azərbaycanın İqtisadiyyat Nazirliyi məlumat yayıb. Açılış mərasimlərində Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, İsrailin Turizm naziri Yoel Razvozov və Azərbaycan Turizm Agentliyinin sədri Fuad Nağıyev iştirak ediblər. Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın İsraildə Ticarət və Turizm nümayəndəliklərinin ikitərəfli ticarət-iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli olacağını bildirib.

**Politoloq İlqar Vəlizadə sözügedən təşəbbüsün əhəmiyyətini "Şərq"ə qiymətləndirib:**

"Tərəflər arasında hərtərəfli əlaqələr inkişaf etməsinə rəğmən, Azərbaycanın İsraildə rəsmi nümayəndəliyi yox idi. Və bu, müxtəlif səbəblərlə bağlı idi. Son vaxtlar isə nümayəndəliyimizin açılması üçün əlverişli şərait yarandı. Ticarət və Turizm nümayəndəlikləri həm də humanitar məsələlərlə məşğul olacaq. Bu qurum eyni zamanda turizmin inkişafına töhfə verəcək. Regional siyasətdən və ikitərəfli qarşılıqlı əlaqələrdən asılı olaraq gələcəkdə İsraildə diplomatik nümayəndəliyin də açılması gözlənilir".

**Kənan**



## Türkiyə dimdik ayaqdadır

### Sosial şəbəkələrdə yayılanlar dezinformasiyadır

**Türkiyənin Prezident Administrasiyasının İctimaiyyətlə əlaqələr İdarəsinin rəhbəri Fahrettin Altun ölkədəki yanğınlardan danışıb.**

Bu barədə "Şərq" "Haberglobal"a istinadən xəbər verir. O, 35 vilayətdəki 129 yanğından 122-sinin nəzarətdə olduğunu bildirib.

*F.Altun, həmçinin yayılan dezinformasiyalardan, sosial şəbəkələrdəki kampaniyalardan söz açıb:*

"Xoş niyyətli hər addım xalqımızın birliyinin göstəricisidir. Amma bu axşamdan etibarən yayılan "Help Turkey" kampaniyası dövlətimizin nüfuzunu zədələməyə, dövlət-xalq birliyinə zərbə vurmağa hesablanıb. Bu, xaricdən idarə edilən təbliğatdır. Türkiyəmiz güclüdür. Dövlətimiz dimdik ayaqdadır".

Nazir vətəndaşları ancaq rəsmi məlumatlara inanmağa çağırıb.

**Kənan**

# Yunanıstanla sərhəddə təxribatlar səngiməyəcək

### Baş verənlərə baxmayaraq Ərdoğan güclü Türkiyə istəyinə mütləq nail olacaq



## "Çünki xalqın birliyi qarşısında bütün dünya gücləri acizdir"

Türkiyə Yunanıstana nota verib. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, buna səbəb Ədirnə vilayətində Yunanıstan tərəfindən mülki geyimli şəxslərin açdıqları atəş nəticəsində Türkiyə vətəndaşının qətlə yetirilməsidir. Yunanıstanın Ankaradakı səfirliyinin müvəqqəti işlər vəkili bununla əlaqədar Türkiyənin Xarici İşlər Nazirliyinə çağırılıb və ona nota təqdim olunub.

Dünən axşam saatlarında Ədirnə vilayətinin Meriç rayonunun Adasarhanlı kənd sakinləri Mehmet Durğun (43) və Süleyman Şener Meriç çayının sahillərinə gediblər. Yunanıstan tərəfindən açıldığı iddia edilən atəş nəticəsində Mehmet Durğun üzündən güllə yarası alıb və hadisə yerində həlak olub. Süleyman Şener hadisədən dərhal sonra kənd mərkəzinə gələrək bu barədə məlumat verib.

**Politoloq Natiq Miri baş verən prosesləri "Şərq" şərh edib:**

"Yunanıstanda şovinist-radikal qüvvələr həmişə olub. Belə insanlar hətta dövlət institutlarında da təmsil olunurlar. Odur ki, təxribatlar təəccüblü deyil. Qlobal güclər Yunanıstandan Türkiyəyə qarşı istifadə edirlər. Hətta ölkədəki yanğınlar da PKK-nın bacara biləcəyi iş deyil. Proseslərin arxasında çox ciddi geosiyasi maraqlar və maliyyə var. Görünür, qlobal şəbəkələr "anti- Türkiyə layihəsini" işə salıblar. Əlbəttə, Yunanıstanla sərhəddə baş verənlər də təsadüfi deyil. Fikrimcə, provokasiyalar yaxın zamanda səngiməyəcək. Hətta daxildə etirazların başlayacağı da gözlənilir. Kimlərsə ölkədə hüzursuzluq yaratmaq istəyəcəklər. Bütün bunlar eyni senarinin tərkib hissəsidir".

**N.Miri düşünür ki, Türkiyəni "yıxmaq" mümkün olmayacaq:**

"Qardaş ölkə prezidenti Rəcəb Tayyib Ərdoğan dövlət siyasəti ilə yanaşı, həm də haqq işini bilən adamdır. O, bütün dünya liderlərinin "kürəyini yerə vurur". Çünki həmişə həqiqəti deyir. Hətta sərt xarakteri ilə seçilən Rusiya Prezidenti Vladimir Putin də Ərdoğandan öyrənəsi çox şeyin olduğunu anlayır. Təsadüfi deyil ki, o, bəzi hallarda Ərdoğanın "yerişini yerimәyə" çalışır. Ərdoğan yaxşı bilir ki, onun hədəfləri əngəllərlə qarşılaşacaq. Ona görə də həmişə xalqını hücumlara hazırlayır. Son proseslərdə Azərbaycanın Türkiyənin yanında olması həm də türk dünyasının birləşməsi istiqamətində atılan mühüm addımdır. Bu, digər dövlətlərə ibrət oldu. Fikrimcə, türk dövlətlərinin birliyinin davamı gələcək. Ərdoğan zamanında səpdiyi toxumların indi bəhrəsini görür. O, güclü Türkiyə istəyinə mütləq nail olacaq. Çünki xalqın birliyi qarşısında bütün dünya gücləri acizdir. Haqlı olan güclüdür. Güclü isə Türkiyədir. Deməli, qardaş ölkə hər zaman qalib olacaq!".

**Kənan Novruzov**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi



# Meşə yanğını riski Azərbaycanda da var

*"Yanğınlarla mübarizədə tez-tez müəyyən məşqlərin, təlimlərin keçirilməsinə ehtiyac var"*

Təbii fəlakətlərin tüğyan etdiyi müasir dövrümüzdə heç kim unutmamalıdır ki, hər bir insan bilavasitə və ya dolayısı yolla meşələrlə əlaqədə olur, onun sərvətlərindən bəhrələnir. Meşələr torpaqları eroziyadan qoruyur, su ehtiyatlarının tükənməsinin qarşısını alır və havanı sanitariya-gigiyena baxımından saflaşdırır, təbiətdə maddələr mübadiləsində və enerjinin bioloji dövriyyəsində əvəzsiz rol oynayır.

Gözəgörünməz mikroorqanizmləri, vəhşi heyvanları, ağacları, otları, yüzlərlə dərman bitkisini qoynunda bəsləyən meşələr təbiətin ayrılmaz hissəsi kimi insanların həyat və fəaliyyətində çox böyük əhəmiyyət kəsb edir. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb. Narahatlıq doğuran haldır ki, yüz il əvvəl Yer kürəsinin quru hissəsinin 60 faizi meşə ilə örtüldüyü halda, indi bu rəqəm 30 faizə enib. Planetdə hər dəqiqədə 44 hektar torpaq deqradasiyaya uğrayır, o cümlədən şum altında olan torpaqlar 10-19 hektar azalır. Meşə yanğınları hər il təbiətin neçə hektarlarla misilsiz sərvətini məhv edir. Bu da su qıtlığı, havanın keyfiyyətinin pisləşməsi, onun tərkibində oksigendən fərqli olaraq karbon qazının, digər müxtəlif qazların artması ilə nəticələnir. Çox təəssüf hissi ilə qeyd etməliyik ki, bəzən ayrı-ayrı insanların meşə təsərrüfatına qayğısızlığı, onun qorunub saxlanılmasına laqeydliyi meşə ərazisində kortəbii, idarə olunmayan alovun yayılması və bütün ərazidəki bitki örtüyünün təbii surətdə yanması ilə nəticələnən meşə yanğınlarını törədərək təbiətin bu əvəzsiz nemətinin məhv olmasına gətirib çıxarır. Meşələrin məhv olmasının əsas səbəblərindən biri onun xüsusən yay aylarında yanğınlara məruz qalmasıdır. Meşələrimizin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra zəruri tədbirlərin həyata keçirilməsi vacibdir. Meşə yanğınları ilə əlaqədar əhali bilməlidir ki, insanlar üçün meşə yanğınının təhlükəsi nəinki alovun birbaşa təsirindən, eyni zamanda atmosferdəki güclü oksigen çatışmazlığından, dəm qazının və digər qatışıqların artmasından yaranan zəhərlənmələrdən ibarətdir. Ötən gün Türkiyənin bir çox əyalətlərində ard-arda baş verən meşə yanğınları bütün dövlətlər üçün gözlənilməz oldu. Təbii ki, baş vermiş genişmiqyaslı meşə yanğınları Türkiyənin təbiətinə, ekologiyasına ciddi ziyan vurdu. Xüsusilə, Türkiyənin flora və faunasını əhəmiyyətli məhv etdi. Bu da bir çox ölkələri bir daha öz təbiəti və onun təhlükəsizliyi barədə düşünməyə sövq etdi.

**Mövzu ilə bağlı "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"ə açıqlamasında vurğulayıb ki, meşə yanğınları həm ekoloji, həm iqtisadi faciəyə səbəb olur:** "Bu cür hadisələrə qarşı həm vətəndaşlarımız, həm də Ekologiya Nazirliyinin əməkdaşları çox diqqətli olmalıdırlar. Bizdə onsuz da meşə sahəsi əraziyə nisbətdə həddən artıq azdır - 10 faiz civarındadır. Türkiyədə və son bir ildə dünyada baş verən iri yanğınların hamısının süni şəkildə qəsdən törədildiyinə əminəm. Hansısa qlobal bir qüvvənin planetimizə və bəşəriyyətə qarşı genişmiqyaslı terror aktı başlatdığı dəqiqdir. Bununla həm də kənar maraqlara tabe olmayan ölkələri çökdürməyə çalışırlar. Türkiyənin də son vaxtlarda müstəqil siyasət yürütməsi, öz "müttəfiqlərinin" nəzarətindən çıxması onların xoşuna gəlmədi və belə bir nəhəng terror törətdilər. Təbii səbəblərdən də yanğınlar olur, amma kiçik miqyaslarda. Yəni eyni vaxtda bir çox yerdə yangın baş verməsi mümkün deyil. Amazon, Sibir, Avstraliya, Kaliforniya kimi dünyamızın ağciyərlərini qəsdən yandırdılar. Bu "ağciyər terroru" həm təbiətə (yanğınla), həm bəşəriyyətə qarşı (virusla) həyata keçirilir. Təbii ki, bizim meşələr də riskli vəziyyətdədir, insanlarımız kabab çəkib yedikdən sonra ocağı tam söndürməmiş gedirlər. Bundan başqa düşmən qüvvələr tərəfindən qəsdən yandırılma ehtimalı da yüksəkdir. Ona görə də bizim meşə nəzarətçilərimiz ərazilərimizə ciddi nəzarət etməlidir".

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında qeyd edib ki, zaman-zaman meşə yanğınları Azərbaycanda da olub. Lakin Türkiyədə, Yunanıstanda, İtaliyadakı kimi böyük masştabda olmayıb:** "Ölkəmizdə meşə yanğınları ilə mübarizənin aparılması istiqamətində Fövqəladə Hallar Nazirliyinin kifayət qədər texniki vəsaitləri var. Sadəcə, son hadisələr göstərdi ki, tək invertarla bu işlər olmur. Ona görə də yanğınlarla mübarizədə tez-tez müəyyən məşqlərin, təlimlərin keçirilməsinə ehtiyac var. Həmçinin, FHN-in işçilərinin bununla bağlı kifayət qədər təhsil və bacarıqlarının olması vacib məsələlərdən biridir. Hesab edirəm ki, texniki vəsaitlərin artırılmasına ehtiyac yarana bilər. Xüsusən, havadan yanğının söndürülməsi üçün su səpən helikopterlərin və amfibiya təyyarələrinin sayının artırılması daha məqsədəuyğundur. Qeyd edim ki, ekologiyaya dəyən ziyan iqtisadiyyata da öz mənfi təsirini göstərir. Ona görə də ekologiyanın qorunması çox vacibdir".

**Aynurə Pənahqızı**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Altılıq platforması"na qarşı ABŞ-ın "kozır"ı var

*"Rəsmi Vaşinqton bütün imkanları ilə Tbilisini proseslərdən kənarda saxlamağa çalışacaq"*





Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında telefon danışığı olub. Məlumata görə, danışıqlarda Türkiyə-Gürcüstan münasibətləri, regional məsələlər diqqət mərkəzində olub. İrakli Qaribaşvili Türkiyədəki meşə yanğınlarından təəssüfləndiyini bildirib.

Ərdoğan isə öz növbəsində yanğına qarşı mübarizədə dəstəyə görə Qaribaşviliyə təşəkkür edib. Türkiyə-Gürcüstan strateji tərəfdaşlığının bu günlərdə daha da genişləndiyini qeyd edən Ərdoğan Gürcüstanı regional əməkdaşlığın açarı olaraq gördüyünü vurğulayıb. Regional nəqliyyat, elektrik xətlərinin səmərəliliyini və təhlükəsizliyini təmin etmək üçün birgə tədbirlərin əhəmiyyətini xüsusi vurğulayan Ərdoğan nazirlər və deputatların uğurla həyata keçirdikləri Türkiyə-Gürcüstan-Azərbaycan üçtərəfli mexanizmini liderlər səviyyəsində də canlandırmaq arzusunu ifadə edib.

**Liderlər arasındakı görüşü "Şərq"ə şərh edən siyasi analitik Asif Nərimanlının fikrincə, bu, "altılıq platforması" ideyası ilə bağlıdır:** "Regionda altılıq platformasına soyuq münasibət göstərən yeganə ölkə Gürcüstandır. Rəsmi Tbilisi hələ tərəddüd edir. Çünki qərb qonşumuz Zəngəzur dəhlizinin açılacağı təqdirdə Gürcüstan yolunun aktuallığını itirəcəyindən narahatdır. Halbuki Prezident İlham Əliyev narahatlığa əsas olmadığını dəfələrlə nəzərə çatdırıb. İkinci bir tərəfdən, Gürcüstan Rusiya faktoruna görə bu layihədə yer almaq istəmir. Beləliklə, Tbilisi "altılıq platforması"nın yaranmasının qarşısını almaq istiqamətində ABŞ-ın əlində "kozır"dır. Rəsmi Vaşinqton bütün imkanları ilə Tbilisini proseslərdən kənarda saxlamağa çalışacaq".

**A. Nərimanlı proseslərin bundan sonrakı inkişafından da danışdı:** "Əslində danışıqlar gözlənilən idi. Gürcüstan baş nazirinin Bakıya səfəri zamanı da həmin məsələ müzakirə edilmişdi. Gürcüstan hələlik gözləmə mövqeyindədir. Bakı və Ankara Tbilisini bu məsələyə razı salmağa çalışacaq. Fikrimcə, gələcəkdə təmaslar daha intensiv olacaq. Gürcüstanın verəcəyi qərar Avropadakı vəziyyətdən asılıdır. Ankara hətta mövcud narazılığın aradan qalxması naminə Rusiya ilə Gürcüstan arasında vasitəçi də ola bilər. Lakin Gürcüstanın təklifə yaxın zamanda müsbət cavab verəcəyini gözləmirəm".

**Kənan**

# "Parlament zorxana, qoçu məclisi deyil"

*"Bəzi millət vəkillərinin xoşagəlməz hərəkətləri parlamentimizin nüfuzuna zərbə vurur"*



Dünən Milli Məclisin İntizam komissiyasında Baş prokuror Kamran Əliyevin deputat Eldəniz Səlimovun toxunulmazlığının ləğvi barədə parlamentə göndərdiyi təqdimata baxılıb. Öncə millət vəkili Eldəniz Səlimov çıxış edib. Deputat etdiyi əməli etiraf edərək həmkarlarından üzr istəyib. Belə bir hadisənin baş verməsinə görə, təəssüfləndiyini söyləyib.

E.Səlimov toplantıda çıxışı zamanı uzun müddət Yeni Azərbaycan Partiyasının (YAP) üzvü olduğunu və dövlətə xidmət etdiyini qeyd edib. Sonda komissiya üzvlərinin hamısı, yəni 11 nəfər baş prokuror Kamran Əliyevin parlamentə göndərdiyi təqdimatın lehinə səs veriblər. Bununla da komissiya deputat Eldəniz Səlimovun toxunulmazlığına xitam verilməsi barədə rəy qəbul edib. Müzakirələrdən sonra məsələ parlamentin avqustun 3-də keçiriləcək plenar iclasına tövsiyə olunub. Xatırladaq ki, iyulun 29-da saat 01 radələrində Xaçmaz şəhərində yerləşən "Starıy Dvor" restoranında deputat Eldəniz Səlimov xidməti vəzifəsini icra edən polis əməkdaşına zor tətbiq edib. Hadisədən sonra cinayət işi açılıb və istintaq aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə bildirib ki, qanunverici orqanın nümayəndəsinin qanunların icrasını həyata keçirən polisə əl qaldırması yolverilməzdir və cəmiyyət tərəfindən qınaqla qarşılanması anlaşılandır:** "Bu olayda cəmiyyət olaraq hamımız polisimizin yanında olmalıyıq. Heç bir deputat, heç bir məmur öz səlahiyyətlərindən sui-istifadə edib dərəbəyliyə yol verməməlidir. Xalq deputat mandatını bu və ya digər şəxslərə özlərini qanundan üstün tutmaq üçün verməyib. Hamı qanun qarşısında bərabər olmalı və öz hərəkətlərinə görə cavab verməlidir. Parlament zorxana, qoçu məclisi deyil. Milli Məclis millətin say-seçmə insanlarının, milli elitanın cəmləşdiyi müqəddəs bir məbəd, bir məkan olmalıdır. Belə bir ali qurumda təsadüfi insanlara yer ola bilməz. Bunu hər kəs dərk etməli və bu düşüncəyə uyğun da davranmalıdır".

*Ə.Hüseynov vurğulayıb ki, Prezident İlham Əliyevin siyasi iradəsi ilə hakimiyyətin qanunvericilik qanadında da islahatlar həyata keçirildi:* "9 fevral 2020-ci il tarixdə ölkədə növbədənkənar parlament seçkiləri keçirildi. Lakin bəzi millət vəkillərinin bu cür xoşagəlməz hərəkətləri sözügedən islahatların ruhuna ziddir və parlamentimizin nüfuzuna zərbə vurur. Ümid edək ki, bəzi gənc deputatlar bundan sonra öz məsuliyyətini daha da dərindən dərk edəcək. Gələcəkdə heç vaxt deputat adına xələl gətirən hərəkətlərə yol verməyəcək".

**İsmayıl Qocayev**

# Yanğınlar Türkiyə üçün əlavə xərclər yaradacaq

Vüqar Bayramov: "Bu da qardaş ölkənin iqtisadiyyatı üçün arzuolunan deyil"



**"Türkiyədə baş verən yanğınları hər birimiz dərin kədər və təəssüf hissi ilə qarşılayırıq". Bu barədə millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov deyib. Deputat bildirib ki, qardaş ölkənin bu bəladan daha tez qurtulmasına dua edirik:**

"Bütün bunlarla yanaşı, Türkiyədə baş verən meşə yanğınları qardaş ölkənin iqtisadiyyatına da mənfi təsir göstərməkdədir. Yanğınlar daha çox Türkiyənin turistik bölgələrində müşahidə olunduğundan bu sahənin gəlirlərinə təsirsiz ötüşməyəcək. Türkiyə bu il 25 milyon turisti qonaqlamağı hədəfləyir. Ötən il pandemiya səbəbindən tənəzzül keçirən turizm sektoru bu il canlanmağa başlamışdı. Bu ilin birinci yarısında Türkiyəyə 7 milyon 250 min xarici turist gəlmişdi və rəqəmlər də artan istiqamətdə dəyişirdi. Təəssüf ki, meşə yanğınları əsasən qardaş ölkənin turizm bölgələrini əhatə etdiyindən, bu, Türkiyəyə səfər etməyi planlaşdıran bir sıra əcnəbilər arasında tərəddüdlər yarada bilər".

*Parlament üzvünün sözlərinə görə, işsizlik səviyyəsi 13.2 faiz olan qardaş ölkədə bu ilin birinci rübündə ÜDM 1.7 faiz artırsa da, əksər makro-iqtisadi göstəriciləri pandemiyadan təsirlənib:* "Bu baxımdan, meşə yanğınları qardaş ölkə üçün əlavə xərc yaradacaq ki, bu da Türkiyə iqtisadiyyatı üçün arzuolunan deyil. Ekoloji problemlərə yol açan meşə yanğınlarını Türkiyənin qısa zamanda nəzarətə alıb tam söndürəcəyinə inanmaqla qardaş ölkənin bu sınaqdan da çıxacağını və iqtisadi təsirlərini daha az intervalda minimumlaşdıra biləcəyini diləyirik".

**İsmayıl**

# Siyasətçiləri təhqir edənlər 140 dollar cərimələnəcəklər

"Paşinyan təhqir dalğasının önünü kəsmək üçün Cinayət Məcəlləsinə dəyişiklik etməyə qərar verib"



**Ermənistan parlamenti Cinayət Məcəlləsinə "siyasətçilərin təhqir edilməsinə görə həbs cəzası" nəzərdə tutan dəyişikliyi qəbul edib. Yeni qanuna əsasən, sosial şəbəkədə, yaxud ictimai yerlərdə təhqirə yol verənlər 140 dollar cərimə ediləcək.**

Təhqirlər davam edəcəksə, bir aydan üç aya qədər həbs cəzası alacaq.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında deyib ki, bu addımın 44 günlük müharibədən sonra ağır təhqirlərə məruz qalan Nikol Paşinyanı, Ermənistanın siyasi rəhbərliyini qorumaq məqsədi daşıdığı bəllidir.** Ekspertin sözlərinə görə, Paşinyan Azərbaycanla yeni müqavilə imzalamağa hazırlaşır: "Putinin Paşinyan və dövlət başçısı İlham Əliyevlə təmasları Moskvada mümkün üçtərəfli görüşə hazırlıq məqsədi daşıyırdı. İstisna deyil ki, yeni sərhəd müqaviləsi imzalanacaq. Sərhəddə baş verən toqquşmaların əsas səbəbi də masaya əli güclü şəkildə çıxmaq istəklərindən irəli gəlir. Bu görüşün Ermənistanda hökumətin formalaşmasından sonra olacağı gözləniləndir. Sərhəd müqaviləsi Qarabağ məsələsində də Bakının istəyini əldə etməsi baxımından əhəmiyyətli rol oynayacaq. Paşinyan anlayır ki, müqaviləyə imza atmaq Ermənistan daxilində ona qarşı yeni etiraz, yeni təhqir dalğasının başlanmasına səbəb olacaq. Bu baxımdan, hökuməti formalaşdırmadan öncə Qarabağ müharibəsində üzləşdiyi hücumların qarşısını almaq, təhqir dalğasının önünü kəsmək üçün Cinayət Məcəlləsinə dəyişiklik etməyə qərar verib".

**İsmayıl**

# Tehranın təkzibləri tutarlı deyil

*İsrail tankerinə hücumda İranın adı hallanır*



Məlum olduğu kimi İsrailin "Zodiac Maritime LTD" şirkətinin idarəçiliyində olan "Mercer Street" tankeri Oman sahillərində hücuma məruz qalıb. Tankerin atəşə tutulması nəticəsində Böyük Britaniya və Rumıniya vətəndaşı olan iki nəfər heyət üzvü həyatını itirib. İsrailin Baş naziri Naftali Bennet hücuma görə İranı suçlayıb. O, əllərində kəşfiyyat sübutlarının olduğunu deyib.

İsrailin Xarici işlər naziri Yair Lapid də Oman sahillərində gəmiyə edilən hücumda İranı günahlandırıb və qəti cavab verilməsini istəyib: "İran təkcə İsrailin problemi deyil, həm də bütün dünyaya zərər verən terrorçu bir ölkədir. Gəmiçilik fəaliyyətinin azadlığına təsir edən İran teroru qarşısında susmamalıyıq". Böyük Britaniyanın Xarici işlər naziri Dominik Raab isə bildirib ki, "Mercer Street" tankerinə hücuma görə İrana cavab verilməsi üçün beynəlxalq tərəfdaşlarla müzakirələrə başlanılıb. Bildirilib ki, Oman sahillərindəki beynəlxalq sularda ticarət gəmisinə edilən hücum qanunsuz və qəddarcasınadır və hücumun İrandan gəldiyinə dair İngiltərənin məlumatı var. ABŞ dövlət katibi Entoni Blinken rezliklə İrana adekvat cavab veriləcəyini söyləyib. Blinkenin sözlərinə görə, Amerika əldə edilən məlumatlara əsaslanaraq iki nəfərin ölümü ilə nəticələnən hücumun İran tərəfindən təşkil olunduğuna şübhə etmir: "Tezliklə bu hücuma adekvat cavab veriləcəyinə söz verirəm". İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xatibzadə isə sözügedən hücumla bağlı bütün ittihamları rədd edib.

**Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri Sədrəddin Soltan "Şərq"ə deyib ki, İsrail tankerlərinə hücumda bağlı İranın adı ilk dəfə çəkilmir.** Ekspertin sözlərinə görə, 2019-cu ildə Səudiyyə Ərəbistanına məxsus tankerin İran tərəfindən hücuma məruz qalması ilə bağlı məlumat yayılmışdı: "O zaman da İran tərəfi bunu təkzib etdi. Amma sonradan təsdiq olundu ki, həqiqətən də tankeri vuran İran olub. Ümumiyyətlə, Ərəb körfəzində, Hörmüz boğazında İran tərəfinin öz sularına yaxın ərazilərdə bu tip hadisələri tez-tez törətməsi ilə bağlı xəbərlər yayılır. İranın riskə gedəcəyi istisna olunmur. Düzdür, ilk baxışda bu cür addım Tehran hökumətinə xeyir gətirmir. Çünki Vyanada İranla altılıq ölkələri arasında imzalanmış əhatəli razılaşma müqaviləsinin qüvvəyə minməsi gözlənilirdi. Belə məqamda İranın İsrail tankerini vurması ağlabatan görünməsə də, amma İran hakimiyyətinin daxilində müəyyən qüvvələr buna gedə bilərlər. Ola bilər, hansısa qüvvə daxildəki nüfuzunu göstərmək üçün belə bir addım atsın. Hər halda "od olmayan yerdən tüstü çıxmaz". Bu cür təxribatlara görə, İranın PUA-ları sahəsinə sanksiya tətbiq olunmuşdu. Əgər iddia öz təsdiqini taparsa, İrana qarşı yeni sanksiyalar tətbiq ediləcək. Hətta Vyanada əldə edilmiş razılaşma sənədinin dayandırılması ehtimalı da az deyil".

**S.Soltanın fikrincə, İranın neft, gəmiçilik sənayesinə, ölkənin hərb sahəsinə yeni genişmiqyaslı iqtisadi sanksiyalar tətbiq edilə bilər:** "Belə təxribatlarda adətən İran İnqilab Keşikçilərinin adı hallanır. Bu qvardiya ABŞ tərəfindən terror təşkilatı siyahısına daxil edilib. Sonuncu hadisənin İran tərəfindən törədildiyi rəsmən isbatlanarsa, digər ölkələr də İran İnqilab Keşikçilərini terror qurumu kimi tanıyarlar. Bütün hallarda bu aksiya İranda hakimiyyətə qarşı tuşlanmış olaydır və istənilən halda Tehran hökuməti üçün ciddi fəsadları ola bilər".

**İsmayıl Qocayev**

# Dəniz turizmi ən gəlirli sahəyə çevrilir



*Azərbaycanla İranın imkanları bu sahədə iqtisadi inkişafa böyük təkan verə bilər*

Çimərliklər dünya turizm sənayesində ən gəlirli sahələrdən biridir. Əksər insanlar ilin isti günlərini dəniz sahilində istirahət mərkəzlərində keçirməyə üstünlük verirlər. Hər il minlərlə xarici turist bu məqsədlə səyahətə çıxır. Dəniz sahilində yerləşən ölkələr də təbiətin onlara bəxş etdiyi bu sərvətdən məqsədli istifadə edərək bu turizm növündən böyük mənfəət götürürlər.

Azərbaycanın Xəzər sahili bölgələrində çimərlik turizminin inkişaf etdirilməsi üçün də əlverişli imkanlar var. Bu məqsədlə də İranla Azərbaycan Respublikası arasında dəniz turizminin genişləndirilməsi planı hazırlanır. EKO 2022 Turizm paytaxtları tədbirinin icraçı katibi Əli Mahfruzi açıqlamasında deyib ki, hazırda bunun üzərində iş aparılır. O qeyd edib ki, bu plan haqqında gələn il İranın Sari şəhərində keçirilməsi nəzərdə tutulan İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv ölkələrin turizm paytaxtlarının iclasında bu haqda Azərbaycan tərəfi ilə danışıqlar aparılacaq. Plana əsasən iki ölkə arasında turistlərin istifadəsi üçün səyahət gəmilərinin açılması nəzərdə tutulur. EKO 2022 turizm tədbiri haqqında danışan Ə.Mahfruzi deyib ki, 2019-cu ildə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin iclasında üzv ölkələrin Turizm paytaxtlarının ilk tədbirinin 2022-ci ildə Mazandaran əyalətinin Sari şəhərində keçirilməsi haqqında razılıq əldə olunub. İƏT-ə üzv ölkələrin turizm nazirləri və bu ölkələrdən olan incəsənət xadimləri gələn ilin oktyabrında İƏT Turizm paytaxtları tədbirində iştirak edəcək.

**Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə dəniz turizminin əhəmiyyətindən danışıb. O qeyd edib ki, dəniz turizmi son dövrlər regionda populyar və daha çox cəlbedici turizm xidmətlərindən birinə çevrilməkdədir:** "Azərbaycan yalnız İranla deyil, digər ölkələrlə, məsələn, Qazaxıstanla da dəniz turizminin inkişafıyla bağlı məsələləri müzakirə edir. Qeyd edim ki, Xəzər dənizi üzərindən belə turizm imkanları mövcuddur. Bu turizm növü imkan verir ki, ölkəyə gələn əcnəbi turistlər dəniz turu vasitəsilə həm Xəzəryanı ölkələrə, həm də bu anlaşmada iştirak edən ölkələrə səfərlər etsinlər. Bu baxımdan Azərbaycanla İran arasında da bu istiqamətdə potensial kifayət qədər böyükdür. Nəzərə alsaq ki, postpandemiya dövründə Azərbaycana gələcək turistlərin sayının artacağı proqnozlaşdırılır. Bu da nəticədə daha çox turistin ölkəmizə gəlməsinə, xüsusən də dəniz turizminə marağın artmasına səbəb ola bilər".

**V.Bayramov diqqətə çatdırıb ki, İranla əməkdaşlıq bütövlükdə regiona daha çox turistin cəlb edilməsinə imkan verəcək:** "Təbii ki, bu da həm Azərbaycanın, həm də İranın turizm gəlirlərinin artması baxımından vacibdir. Nəzərə alaq ki, əcnəbi turistlərin bir qismi səfər edən zaman bir ölkə deyil, bir neçə ölkəyə getməkdə maraqlı olurlar. O baxımdan əməkdaşlıq daha çox turistin ölkəmizə cəlbinə imkan verəcək. Ona görə də bu, birmənalı şəkildə hər iki ölkənin dövlət gəlirlərini artıracaq və turizmin inkişafı baxımından yeni imkanlar yaradacaq. Eyni zamanda qarşılıqlı turizm əlaqələrinin genişləndirilməsinə xidmət edəcək. Təbii ki, bu müzakirə edilən məsələnin reallaşması hər iki ölkənin iqtisadi inkişafı baxımından çox mühümdür".

**Aynurə Pənahqızı**



## 1 yaşlı platforma...

Gənclərin maariflənməsinə dəstək olur

**Sosial iş və sosial media platformasının 1 yaşı tamam oldu.**

Kamran Muradovun başçılığı ilə bu platforma ilk 1 il ərzində Azərbaycanın sosial, ictimai və informasiya məkanında layiqincə çalışmış, əsl professionallıqla özünə məxsus işgüzar məqamlarla əsaslı fəaliyyət göstərib. Bir illik yubileylə əlaqədar olaraq 10 iyun tarixində konfrans təşkil olunub. Bu platformanın təsisçisi və rəhbəri olan Kamran Muradov platformanın məqsəd və vəzifələrini, həmçinin bir ildə görülən işlər barədə məlumat verərək, platformanın yüzlərlə təlim təşkil etdiyi və gənclərin maariflənməsinə dəstək olacaq təlimlərin uğurlu layihələri haqqında danışdı. Eyni zamanda platformanın gənclərindən Xəyalə Ayazovanın "Özündə özünü kəşf et" adlı layihəsi haqqında danışdı. Diqqət çəkən məqamları olan bu layihənin məqsədi analıq, anaların cəmiyyətdəki rolu, missiyası, sosial mövqeyi, valideyn-uşaq münasibətləri və qohumluq əlaqələrinə bağlı olan mental dəyərlərin mühafizəsinə xüsusi diqqət ayrıldı. Konfransda Azərbaycan Respublikasınn Milli Məclisinin deputatı Ceyhun Məmmədov da çıxış etdi. Millət vəkili platformanın 1 yaşı münasibətilə rəhbərliyi təbrik etdi. Sonra o qurumun "Diqqətcil qonşu" layihəsinin cəmiyyət, dövlət, dövlətçilik ənənələrinin möhkəmlənməsində rolundan bəhs etdi və Ulu Öndər Heydər Əliyevin ideyalarını rəhbər tutan gəncliyə inamının çox olduğunu bildirdi. Tədbirdə Astara Gənclər və İdman idarəsinin rəisi Ərçə Əliyev, Astara şəhər 1 nömrəli tam orta məktəbin direktoru Xədicə xanım, Naftalan Gənclər və İdman idarəsinin rəisi Samir Qocayev, Astara Gənclər və İdman idarəsinin gənclərlə iş üzrə nümayəndəsi, İkinci Qarabağ müharibəsinin qazisi Abbas İbrahimli iştirak etdi. Konfransda platformanın iştirakçısı Billurə Hüseynovanın "İsmayıllı Tarix və Diyarşünaslıq" muzeyinə onlayn səyahət adlı layihəsindən də danışdı. Son olaraq həmtəsisçilər Ayaz Yusifzadə və Zaur İbrahimov çıxış etdilər. Onlar qurumun "Hər şey Vətən üçün" adlı layihəsindən bəhs etdilər və bununla tədbir başa çatdı.

**Banu Çiçək Hüseynli**

# Böyük örnək...

*Gürcüstan azərbaycanlıları qeyri-milli soyad sonluqlarından imtinaya hazırlaşır*

Gürcüstan parlamentinin Prosedural Məsələlər və Qaydalar Komitəsi ölkənin etnik azərbaycanlı vətəndaşları tərəfindən yaradılmış təşəbbüs qrupunun qeydiyyatdan keçirilməsi məsələsini dəstəkləyib. Xatırladaq ki, bəhs edilən təşəbbüs qrupu qeyri-milli soyad sonluqlarından (-ov, -yev və. s.) imtina edərək milli soyad sonluqlarının bərpasını istəyən etnik azərbaycanlılar tərəfindən yaradılıb.

Təşəbbüs qrupunun nümayəndələri bildiriblər ki, müvafiq qanun layihəsi hazırlanaraq, azı 2500 seçicinin təşəbbüsü ilə parlamentə təqdim ediləcək. Məlumat üçün deyək ki, 30 illik müstəqillik tariximizdə Azərbaycan soyadlarının milli idenfikasiya məsələsi dəfələrlə müzakirə müstəvisinə çıxarılıb. Təkcə dövlətimizin deyil, həm də soyadlarımızın imperiya əsarətindən xilas olması məqsədilə bir sıra addımlar atılıb. Buna rəğmən, "ov" və "ev"lərdən xilas olanlarımızın sayı həddindən artıq azdır. Statistikaya görə, bu günə kimi azərbaycanlıların 80 faizi "ov", "ev" soyad sonluqlarını daşımaqdadır. Görünən odur ki, proses kütləvi deyil, fərdi şəkildə, özü də çox ləng davam edir.

**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə deyib ki, Gürcüstanda, xüsusən Borçalıda yaşayan azərbaycanlıların qeyri-milli soyad sonluqlarından imtina ilə bağlı təşəbbüs qrupu yaratması təqdirəlayiq haldır. Alim qeyd edib ki, Gürcüstandakı soydaşlarımız belə bir təşəbbüslə çıxış etməklə, həm də öz milli varlıqlarını ortaya qoyurlar:** "Ümid edirik, Gürcüstan parlamenti soydaşlarımızın təşəbbüsünü müsbət qarşılayacaq. Bütün postsovet ölkələrində yaşayan soydaşlarımız eyni düşüncədə olmalıdır. Azərbaycanda bu məsələnin hələ də öz həllini tapmaması daha çox biganəlik və etinasızlıqla bağlıdır. Söhbət bu işi həyata keçirənlərdən gedir. Milli soyadların tətbiq olunması prosedurunu daha dəqiq addımlarla reallaşdırmaq mümkündür. Ancaq diqqət yetirəndə görürük ki, prosesi yürüdən şəxslərin özlərinin soyad sonluğu qeyri-millidir. Bunun səbəbi hələ də sovet təfəkküründən, həmin dövrün şüurundan xilas olmamaqla bağlıdır".



**Türkoloq Gürcüstandakı soydaşlarımızın təşəbbüsünün bizə də stimul olmasını arzulayıb:** "Əgər qonşu ölkədə yaşayan azərbaycanlıların təklifi parlamentdən keçərsə, bu addım bizim üçün gözəl örnək təşkil edəcək. Bəlkə o zaman Azərbaycanda proses sürətlənər. Biganəlik və məsələyə barmaqarası yanaşma ortadan qalxar. Hər şey bu işi həyata keçirənlərin iradəsindən asılıdır. Görünür, "ov, yev" sonluqlarının qalmasında maraqlı olan, bunu təbliğ edən "5-ci kalon" nümayəndələri iş başındadır. Ancaq əvvəl-axır bu proses başlanmalıdır. Əsas odur ki, bürokratik əngəl olmasın və prosedur mümkün qədər sadələşdirilsin. Azərbaycanda milli ruh dirçəlir, daha üst səviyyəyə qalxır".

**İsmayıl**

# "Hər gün o ağrını duyuram"



## Fəxrəddin Manafov: “Söz deməyə artıq kimsəm yoxdur”

Xalq artisti Fəxrəddin Manafov növbəti doğum gününü qeyd edir. "Şərq" xəbər verir ki, sevilən aktyor "ASAN Radio"nun qonağı olub. Sənətkar yeni yaşında necə hiss etdiyindən danışıb:

”Mənim üçün ikiqat bayramdır. Çünki avqustun ikisi həm də Azərbaycan Kinosu günüdür. Nə xoş ki növbəti yaşımı ruhən azadlıqda qeyd edirəm. Altmış altı illik ömrümdə Vətənlə bağlı ən çox xoşbəxt olduğum günləri son Qarabağ savaşında yaşadım. Həyatımda bu qədər ağlamamışdım. Efirdə də qəhərimi gizlədə bilmirdim. Ali Baş Komandanımız, hörmət edib sevdiyim, dahi insan cənab İlham Əliyev bizə, mənə ruh azadlığı bəxş etdi. Otuz ildir o yükü çiyinlərimizdə, beynimizdə, yaddaşımızda daşıyırdıq. Artıq inamımız azalırdı. Təbii ki, ümid edirdik. Torpaqlarımızın bir gün işğaldan azad olunacağına inanırdım. Lakin qorxurdum ki, ömrüm çatmaz. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizi qorusun. Alli Baş Komandanın və müzəffər ordumuzun qarşısında baş əyirəm. Doğum günü adi bir gündür. Ən gözəli odur ki, 66 yaşımda bu sevinci yaşayıram”.

Aktyor yaxın zamanda dünyasını dəyişən həyat yoldaşı Vahidə Sadıqovadan da söz açıb: ”Böyük ağrı ilə deyirəm ki, ən yaxınım vəfat etdi. Səhər gözümü açanda, gecə yuxuda da, axşam yatmazdan öncə də bu ağrını duyuram. Fikirləşiərm ki, ömrün qəribə bir dövrü başladı. Vaxtilə anama-atama demədiyimi Vahidəyə söyləyirdim. Artıq deməyə kimsəm yoxdur”.

**Samirə Ərəblinski**



## “Öləndə yerimi heç kim bilməyəcək"

Flora Kərimova vəsiyyətini söyləyib

**Xalq artisti Flora Kərimova ”Elgizlə izlə” proqramında qonaq olub.**

**”Şərq” xəbər verir ki, o, bir vəsiyyətini dilə gətirib:**

”O adam xoşbəxtdir ki, yaşayanda sevilib, dünyasını dəyişəndə ağlayanı olub. Mən evdə də demişəm. Səksən yaşım var. Sabahım olmaya bilər. Köçəndə qəbir üstümdən kadrlar çəkmə imkanınız olmayacaq. Yerimi heç kim bilməyəcək. Övladlarıma söyləmişəm ki, sizdən bunu ruhum tələb edəcək”.

**Samirə**



## Damla dəyişdi və ağladı

İfaçı saçlarını qısaltdığı üçün göz yaşlarını saxlaya bilməyib

**Müğənni Damla yeni klipi üçün görünüşündə dəyişiklik edib. O, saçlarını kəsdirib və rənglətdirməli olub.**

”Şərq” xəbər verir ki, müğənninin prodüseri Şamil instaqramda onun videosunu paylaşıb. İfaçı saçlarını qısaltdığı üçün göz yaşlarını saxlaya bilməyib. Damlanın ağladığı görüntüləri sosial şəbəkə istifadəçiləri tənqid atəşinə tutublar.

Bir istifadəçi ”Bir camaatın dərdinə baxın, bir də bunun nəyə görə ağladığına” rəyini yazıb.

Digəri ”Bu qədər sevirsə, saçını kəsməsin. Parik qoysun. Bilir ki, saçını kəsəcək, o stola oturmasın. Niyə ağlayır?” şərhini əlavə edib.

**Samirə**

## 7 il sonra duet oxudular

Yeni ifanı əksəriyyət bəyənmədi




**Müğənnilər Röya Ayxan və Zamiq Hüseynov mərhum Xalq artisti İlhamə Quliyevanın ”Neylərsən?” mahnısını birgə ifa ediblər.**

”Şərq” xəbər verir ki, onlar yeddi il sonra duet oxuyublar. Lakin iki sənətçinin yeni ifasını əksəriyyət bəyənməyib. Bu mahnının İ.Quliyevanın ifasında daha gözəl səsləndiyini söyləyib.

*Aparıcı, psixoloq İlham Mirzəyev də səhifələrin birində rəy yazaraq fikir bildirib. O, bu şərhi əlavə edib:*

**”İlhamə Quliyeva möhürünü vurub da”.**

**Samirə**

# Xalq artisti arzusunu dilə gətirdi



## *“İstəyirəm əvvəlki filmlərimizin ab-havası geri qayıtsın”*

İki avqust Azərbaycanda Milli Kino Günü kimi qeyd olunur. Xatırladaq ki, 1898-ci il avqustun 2-də fotoqraf Aleksandr Mişonlentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərin müstəqil nümayişini təşkil edib.

18 dekabr 2000-ci il tarixində Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü elan edilib.

**”Şərq”lə həmsöhbət olan Xalq artisti Firəngiz Mütəllimova bütün həmkarlarına təbriklərini çatdırıb:** ”Ən sevdiyim aktyorlardan biri, ”Qanlı zəmi” filmində tərəf-müqabilim olan Ənvər Həsənov Prezidentimiz tərəfindən evlə təmin olundu. Onu da təbrik edirəm. Çünki Ənvəri həmişə çox istəmişəm. Mənim üçün sevindirici xəbər oldu. Arzum budur ki, əvvəlki filmlərimizin ab-havası geri qayıtsın. Aktyor heyəti gül çələnginə bənzəməlidir. Mən ”Bəyin oğurlanması”nda rol almışam. Xatırlayın, orda nə qədər böyük sənətkarlarımız var idi. Onu izləyəndə dedim, bundan sonra filmə çəkilməsəm də olar. Bu mənə bəsdir. İstəyirəm ki, gələcəkdə filmlərimiz vətənpərvərlik mövzusunda çəkilsin. Son Qarabağ savaşında şəhid olan oğullarımızın həyatından bəhs etsin. Hərəsi bir dastandır, filmdir. Milli geyimlərimizin yer aldığı seriallar ərsəyə gəlsin. Bütün dünya görsün. Yeni nəsil yetişir. Eyni kinolara, insanlara baxmaqdan adamın gözü ağrıyır. Aktyor seçimlərinə də diqqət edilsin. Bilmirəm bu nə ilə əlaqəlidir. Mən işin icraçısıyam, sadəcə rol alıram. Diləyirəm ki, Cəfər Cabbarlı adına ”Azərbaycanfilm” kinostudiyası yenidən necə lazımdırsa, işə başlasın. ” Ögey ana”, ”Dəli kür”, ”Yeddi oğul istərəm” , ”Dağlarda döyüş”, ”Babək”, ”Nəsimi” kimi filmlərimiz var idi. Belə keçmişimizi, gələcəyimizi əks etdirən kinolarımız yenə olsun”.

**Samirə Ərəblinski**



## Afaq Gəncəlinin Bodrum istirahəti...

İstifadəçilər aparıcını “topa tutdular”

**Aparıcı Afaq Gəncəli bir müddətdir ki, Bodrumda istirahət edir. O, instaqram hesabında tətildən fotolarını paylaşıb.**

”Şərq” xəbər verir ki, A.Gəncəli paylaşımlara bu rəyi yazıb: ”Hər səyahətin özünəməxsus tarixçəsi var. Bu səfər o qədər maraqlı keçdi ki, Bodrum məni geri səsləyir. Gəlirəm”.

Lakin aparıcını sosial şəbəkə istifadəçiləri tənqid ediblər. Ona Türkiyədə davam edən yanğınları xatırladıblar.

**”u_lya_1” adlı istifadəçi** ”Bodrum yanır, bəxtəvər” şərhini əlavə edib.

**”roya_shirinova”:** ”Bodrum kül oldu. Camaat nə haydadır”.

**”p.akhmedovva”:** ”Nə gündədirlər. Millət qan ağlayır. Bunlar öz keflərindədir. Yaxşı ki, göydən daş yağmır”.

**Samirə**

# Türkiyənin göz yaşları qurumur



## Əhali yanğınların qarşısında aciz qalıb

(Əvvəli səh: 16-da)

Hazırda Antalyada Antalya Böyükşəhər Bələdiyyəsi 646 nəqliyyat vasitəsi və 1767 şəxsi heyəti ilə yanğın sahəsinə cəlb olunublar. Bələdiyyə qrupları 107 əyalətdə və digər yerlərdə 286 personalı ilə birlikdə gecə-gündüz yanğını söndürməyə çalışırlar.

28 iyuldan bu yana Antalya Böyükşəhər Bələdiyyəsi 46 məhəllədən 66 min 931 kömək istəyini yerinə yetirib. Bölgədə 5 gündə 22 min 400 nəfər üçün yemək də hazırlanıb. Antalya Böyükşəhər Bələdiyyə başçısı Muhittin Böcək, yanğının qısa müddətdə söndürülməsi üçün işlərin gecə-gündüz davam etdiyini söyləyib. Bölgədə elektrik olmadığını və bu vəziyyətin işini çətinləşdirdiyini ifadə edən Bələdiyyə başçısı Böcək deyib ki, 69 məhəllədə su yoxdur. O bildirib ki, 73 generatorla insanların su tələbatını ödəməyə çalışırlar. Manavqatda yanğın zamanı 30 min hektar əkin sahəsi və 2800 bina konstruksiyası məhv edilib.

Bütün meşə sahələrinin külə çevrildiyi və 3 evin yandığı Hızırköyə səfər edən nazir Karaismailoğlu da məhəllə sakinləri və məhəllə muhtarı Mehmet Çil ilə görüşüb. Dünən baş verən yanğınla əlaqədar olaraq muxtar Mehmet Çil yanğın anlarını izah edərkən göz yaşlarını saxlaya bilməyib. Muxtar Çil yanan 3 evin meşə sahəsindəki yanğın nəticəsində əl bombası kimi partladığını və evlərin qalıqlarının bağlara düşdüyünü deyib. Yanğın nəticəsində bir çox iş müəssisələri də tamamilə məhv olub.

**Aynurə**

---

**Təbrik edirik!**



**Əziz, sevimli balamız Əli, doğum günün mübarək olsun.** Gəlişinlə ocağımızı isindirdin, sevincimizə səbəb oldun, dünyamıza işıq saçdın. Bu gün ürəyimiz fərəhlənir, üzümüz gülür, yaradana min şükkürlər olsun deyirik. Tanrı səni xoşbəxtlərdən etsin. Ailənə, millətinə layiqli övlad olasan. Bir daha səni 3 yaşın tamam olması münasibəti ilə təbrik edir, öpüb, bağrımıza basırıq.

**Səni dünyalar qədər sevən baban Əli və atan Pərviz.**

---

**Elan**

Biləsuvar şəhər sakini Əliyeva Dürdanə Qurban qızının adına verilmiş (000623 nömrəli ) Şəhid Ailəsi Üzvünün Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

# Qərarı qətidir...

## Milyarder kiçik bir kəndə köçür

Elektrik bağlantısı da çox etibarlı səviyyədə deyil. Bu səbəbdən də Sridhar hər gün dizel generatorundan istifadə etmək məcburiyyətindədir. Bir sözlə, bu ərazinin Silikon vadisi ilə heç bir əlaqəsi yoxdur.



Bəs bu şərtlər altında Sridhar şirkəti necə idarə edir? Bilirik ki, ən əhəmiyyətli vasitə internet bağlantısıdır. Sridhar burda yüksək sürətli fiber optik internet bağlantısı əldə etməyi bacarıb və iş üçün ən vacib infrastrukturu yaradıb. O qeyd edib ki, uğurlu və böyük bir şirkətin müdiri olmağın bəzi üstünlükləri var: "Əslində, mənim yanıma çox böyük siyasi qərarlar verərkən gəlirlər. Şirkət kifayət qədər böyük olduğu üçün qərarların çoxu yerli səviyyədə, orada çalışan insanlar tərəfindən verilir. Məsləhətçilər isə yaxınlıqda yaşayır".

Sridhar hər şeyi yaxından izlədiyini və iştirak etdiyini söyləyir. O, kənd həyatından zövq aldığını da deyib. Bir yerə gedəndə isə avtomobildən deyil, elektrikli rikşadan və ya velosipeddən istifadə edir. Tez-tez kənd qəhvəxanasına gedir və kəndlilərlə söhbət edir. O bildirib ki, buradakı həyatdan çox zövq alır. Kənddən və ətraf kəndlərdən çox adamlar tanıyır. Hindistandakı əksər kişilər kimi o da "doti" geyinir. Kəndlilərin əksəriyyəti onun tez-tez mediaya çıxması ilə kim olduğunu bilir, amma özü məşhur olmadığını israr edir. O bildirib ki, kəndin sosial həyatı tamamilə fərqlidir: "İnsanların yaxşı dostluqlar qurmağa vaxtları var. Kimsə sizi təsadüfi olaraq evinə dəvət edə bilər. Yaxınlıqdakı qonşu kəndə gedəndə bəlkə də 10-15 nəfərlə söhbət edirəm. Sosial mediada sənayedəki son tendensiyaları yaxından izləyirəm. Burada insanlar maraqlı söhbətlər edir. Əvvəllər iş üçün tez-tez səyahət edirdim, amma indi bu cür şeylərin çoxu hər gün baş verir. Koronavirus epidemiyası başlayanda dünyanın hər yerində ofislər bağlandı və bir çox insan evdən işləməyə başladı. Hesab edirəm ki, bu prosesin sonunda bir çox şirkət epidemiya bitdikdən sonra da uzaqdan işləmək barədə düşünməlidir. Bir çox işçim pandemiyadan əvvəl uzaqdan işləməyə uyğunlaşıb və nəticədə indi daha davamlı bir iş tərzinə sahib olublar. Hindistanın bir çox fərqli kənd yerlərində 30 -a yaxın peyk ofisi yaratmışıq. Hələ ki, strukturun harada inkişaf edəcəyini tam bilmirik. Ancaq bu kənd ofislərinin yaradılmasına böyük sərmayə qoymuşuq. Buradakı işçilərin 30-u evdən daimi işləyəcək".



Sridhar bir peyk ofisində ideal işçi sayının 100 olacağını söyləyir. Sridhar Hindistan və ABŞ-da işinə başlamazdan əvvəl çox yaxşı məktəblərdə təhsil alıb. Lakin o, bu gün dünyadakı təhsil sistemlərini sərt tənqid edib və onu bəyənmədiyini söyləyib.

**Aynurə**

---

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 401



# Qərarı qətidir...

Milyarder kiçik bir kəndə köçür



**Sridhar Vembu və qardaşları 1996-cı ildə ABŞ-ın qlobal texnologiya və kəşf paytaxtı Silikon vadisində "Zoho" şirkətini qurublar.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, 25 il sürətlə inkişaf edən bu proqram şirkəti hazırda 9500 işçiyə sahibdir. "Forbes" jurnalının hesablamalarına görə, Vembu qardaşlarının sərvəti 2,5 milyard dollardır. Ömrünün təxminən 30 ilini Kaliforniyada keçirən və şirkətini qabaqcıl proqram şirkətləri sırasına daxil etməyi bacaran Sridhar bir gün sakit, çox uzaqda yerləşən bir yerə köçmək qərarına gəlir. O, Hindistanın cənubunda hər yerdən uzaqda yerləşən kiçik bir kəndə köçür. İki mindən az əhalisi olan bu kəndin nə asfalt yolu, nə içməli suyu, nə də ki kanalizasiyası var.

*(Əvvəli səh:15-də)*

**Aynurə**

# İnsanlar ayağa qalxdılar

Vətəndaşlar meşələri yanğınlardan özləri qoruyacaq



**Antalyanın Manavqat vilayətində davam edən yanğınlar insanları ayağa qaldırıb. Bu barədə "Şərq" "Haberglobal"a istinadən xəbər verir.**

Bildirilir ki, təxribat ehtimalını nəzər alan yerli vətəndaşlar meşənin girişində silahla növbə tutmağa başlayıblar. Əraziyə hər girən saxladıqlarını deyən Esat Yardan, həmçinin əlavə edib: "Əgər dayanmasa, başına gələcəkləri özü düşünsün". Növbətçilərin sözlərinə görə, meşəyə rəsmi nümayəndələrdən başqa kimsə buraxılmır.

**Kənan**

# 21 yaşlı tələbəni zorlayıb, öldürüb, doğradı

Cəsəd çamadanın içində meşədə basdırılıb



**5 gündür itkin düşən jurnalistika fakültəsinin tələbəsi 21 yaşlı Azra Gülendam Haytaoğlunun cəsədi Antalyada tapılıb.**

Milli.Az haberturk-ə istinadən xəbər verir ki, dəhşətli bir cinayətin qurbanı olan gənc qızın parçalanmış cəsədi çamadanın içində meşədə basdırılıb.

Xəbərdə deyilir ki, Akdeniz Universitetinin tələbəsindən 5 gündür ailəsi xəbərsiz olub. Ailəsi sosial mediada onun barəsində çağırış da edib. İstintaq tədbirləri ilə müəyyən olunub ki, qız evində təcavüz etdikdən sonra boğub öldürülüb. Bu şəxs isə daşınmaz əmlak agenti M.M.A. adlı şəxsdir. Onu hamam otağında beş hissəyə bölüb və çamadanla meşədə basdırıb. 48 yaşlı şəxs həbs olunub.



# Türkiyənin göz yaşları qurumur

*Əhali yanğınların qarşısında aciz qalıb*



**Son gələn xəbərlərə görə, Manavqatın Çardak məhəlləsində dağlıq ərazidə başlayan yanğın davam edir.**



"Şərq" Türkiyə mətbuata istinadən xəbər verir ki, dik ərazi səbəbiylə qurudan müdaxilə edilə bilməyən ərazilərdə yanğını söndürmək üçün vertolyotlar cəlb olunub. Xilasetmə maşınları yeni açılan Konya karayolunda bir tampon zonası yaratmaq üçün bölgəyə gedib. Burada insanlar bufer zonası yaratmaq üçün ağacları kəsməyə başlayıblar. Antalya qubernatoru Ersin Yazıcı, İl Jandarma Komandiri Tuğgeneral Mustafa Başoğlu və AK Partiya Antalya millət vəkili Kamal Çelik yanğın bölgəsini ziyarət ediblər.

*(Əvvəli səh:15-də)*

**Aynurə**



# Ailəliklə sevindilər

Tapdıqları 81 kiloqram ağırlığında meteoroid olduğu müəyyənləşib



**Van gölü sahilində 81 kiloqram 400 qram ağırlığında olan meteoroid tapılıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, ABŞ -da Ay və Planet İnstitutu tərəfindən aparılan araşdırma nəticəsində onun meteoroid olduğu təsdiqlənib. Meteoroidi 60 yaşlı mühafizəçi Osman Hezer tapıb. O deyib ki, Gevaş mahalının Dokuzağaç məhəlləsi yaxınlığında ailəsi ilə gəzintiyə çıxarkən sahildə həmin meteoroidi tapıb. Ailəsinin köməyi ilə evinə apardığı daşın eyni ölçüdə olanlardan daha ağır olduğundan şübhələnib. Hezer daş nümunəsini Kırklareli Universiteti Aviasiya və Kosmos Elmləri Fakültəsinin müəllimi Dos. Dr. Mehmet Yeşiltaşa göndərib. Müayinələr nəticəsində meteoroid olduğu müəyyən edilən daşın nümunəsi ABŞ-dakı Ay və Planet İnstitutuna göndərilib. Burada aparılan araşdırma nəticəsində meteoroid Beynəlxalq Meteoroid Məlumat Bülletenində qeyd edilib. Qeyd olunub ki, bu daş rəsmi olaraq Türkiyəyə düşən üçüncü ən böyük dəmir qrupu meteoroididir. Bu meteoroid çox yüksək nisbətdə əriyən və kristallaşmış dəmir və nikelə sahib olan 'IIIAB' sinfində qeydə alınıb. Düşdüyü nöqtənin adına uyğun olaraq meteoroid "Dokuzağaç" adlandırılıb.

**Aynurə**

# Məşhur reper 4 yaşlı qızını itirdi



**Dünyaca məşhur amerikalı reper Feti Vapın dörd yaşlı qızı vəfat edib.**

Axşam.az xəbər verir ki, bu barədə reperin xanımı Turkoiz Mayami İnstaqram hesabında yazıb. Azyaşlının hansı səbəbdən öldüyü bilinmir. İlkin məlumata görə, uşaq bir aydır xəstə olub və yuxuda olarkən dünyasını dəyişib.

*Qeyd edək ki, Vap 2015-ci ildə çıxardığı "Trap Queen" adlı sinqılı ilə "ABŞ Billboard Hot 100" çartında ikinci olub.*